# ADP hökuməti quru sərhədləri açmağa çağırdı


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№16 (3307) 30 Aprel / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


ANA XƏBƏR



## Qətldə şübhəli bilinən şəxs ürəktutmadan öldü

# 20 milyonluq "daş bazarı" ətrafında qalmaqal böyüyür





İş adamı Fərəməz Məmmədovun keçmiş dostu bazarın 35 faizinə iddia edir...

10

GÜNÜN NƏBZİ

Müsahibə

## "Dinimiz buyurub ki, öz ölkənə bağlı ol!"



Yaşar Qurbanov: "Əgər bir ilahiyyatçı insanları hansısa bir ölkəyə bağlı olmağa çağırırsa, deməli, bunun təməlində səhv var"

3

Cəmiyyət

## "Mən siyasi məhbus deyiləm"

Nazim Bəydəmirli: "Mənim adımdan istifadə olunmasını istəmirəm"

4

Xəbər

## 143 milyonluq məhkəmə işi

"Nəcməddin Sadıkov kabinetinə çağırıb 500 min manat verdi ki, aparıb Nizami Məmmədova çatdırım..."

2

Baxış

## Həyasızlığın da bir həddi olmalıdır...

Fəxri adları üzlərinə qalxan kimi tutaraq yenə də, camaatı avam yerinə qoymaq istəyənlər hər yerdən qovulmalıdırlar

6

MEDİA

## "Prezidentin Almaniya səfəri bir çox maqamları ilə tarixə düşdü"

Elxan Şahinoğlu: "Ermənistanla sərhədin müəyyənləşdirilməsinin sonrakı mərhələlərində mübahisələr yarana bilər"

8-9

Söhbət

## "Teatra ancaq əyləncə vasitəsi kimi baxmaq lazım deyil"



Mehriban Ələkbərzadə: "Milli Dram Teatrına 30 ilin davamını qurmağa gəldim"

5

Aktual

## "Bu, İran rejiminin ölkəmizə açdığı "narkotik savaşı"nın tərkib hissəsidir"



Qulu Məhərrəmli: "İrandakı narkotik şəbəkəsinə bağlı adamlar ikiqat təhlükəlidir..."

11

Şikayət

## "Hakim deyib ki, onu təhqir etmisən, o da səni vurub da"

Keçmiş kürəkəni tərəfindən oğlu bıçaqlanan, özü isə döyülən Balaxanı sakini Nadir Əmirov hakim Siyavuş Hacıyevin işə qərəzli yanaşdığını deyir

Siyəzəndə anadan olan, Bakı şəhəri, Sabunçu rayonu, Balaxanı qəsəbəsində yaşayan Əmirov Nadir Hacağa oğlu "Hürriyyət" qəzetinin redaksiyasına müraciət edib. N.Əmirov deyir ki, 2022-ci ilin sentyabr ayında övladı Əmirov Xəyal Nadir oğlu keçmiş kürəkəni Mustafayev Ayaz Oktay oğlu tərəfindən kəsici-deşici alətlə çoxsaylı zərbələrə məruz qaldığı, özü isə döyüldüyü halda, onun şikayəti müvafiq qurumlar tərəfindən obyektiv araşdırılmır...

7

Xəbər

## Səbaildə gecə əməliyyatı...

Kəsilən ağaclar, betonqarışdıran maşınlar və "pul seli"

Son vaxtlar ölkə mediasında Səbail Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri İlham Məmmədovun Qafur Məmmədov adına parkdakı yaşıllıqlara divan tutması, park ərazisini işbazlara satması ilə bağlı məlumatlar yer almaqdadır. İTV-nin Səbail rayonunda apardığı çəkilişlər və hazırladığı süjetlər də rayon ərazisində qanunsuz tikililərin "ayaq açıb yeridiyini", normal tendensiyaya çevrildiyini göstərir.

2

# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№16 (3307) 30 Aprel / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiyməti: 60 qəpik


# Dünyanın ən böyük "qara bazar"ı...

## Rusiyanın onlayn narkotik şəbəkəsi niyə "dünyanın ən qədim qara bazarı" adlandırılır?

**Adını yunan mifalogiyasındakı "çoxbaşlı əjdaha"dan götürən "Hidra" (Hydra) təşkilatı dünyanın narkotik üzrə ən böyük onlayn "qara bazarı" hesab olunurdu. "Hidra" son illərədək Rusiya əhalisinin 69 faizi üçün əlçatan idi və müştərilərinə narkotik maddələrin, həmçinin də onların prekursorlarının topdansatışı da daxil olmaqla, geniş çeşiddə məhsullar təklif edirdi. Hansı ki, uzun illər bu təşkilatın qanunsuz fəaliyyətinin qarşısını almaq mümkün olmurdu...**

**Stopnarkotik.az xəbər verir ki, ümumiyyətlə, onlayn narkotik bazarının iki əsas məziyyəti var:**

***1.*** *Qeyri-leqal narkotik istehlakının artması;*

***2.*** *Təchizatçılar arasında əməkdaşlığın asanlaşması.*

"Hidra" təşkilatının fəaliyyətini analiz edən rəsmilər də bu qənaətə gəldilər ki, "qara bazar"ın miqyasının kiçilməsi üçün maliyyənin bazara girişinin qarşısını kəsmək lazımdır. Araşdırmada o da məlum olur ki, onlayn bazar iştirakçıları, istər satıcılar, istər də alıcılar hüquq-mühafizə orqanlarının əlinə keçmək riskindən yayına bilirlər. Hüquq-mühafizə orqanları tərəfindən iri ticarət sferalarına və satıcılara müdaxilə ona gətirib çıxarır ki, alıcılar digər alternativ platformalara - tədarükçülərə doğru yön alırlar. Bu məsələ hüquq-mühafizə orqanlarının gördüyü tədbirlərin - narkotik satıcılarının və narkoticarət platformalarının administratorlarının təqib olunması - effektivliyi ilə bağlı disskusiyalara səbəb olur. Bəzi ekspertlər məsələyə zərərin azaldılması prizmasından baxırlar və qeyri-leqal narkotik satışı ilə bu prizmadan mübarizə aparmağı irəli sürürlər.

Qeyd edək ki, mövcud olduğu 7 il ərzində narkotik bazarında dominantlıq edən "Hidra" 2022-ci ilin aprelinə, yəni bağlanan tarixədək Rusiyada pərakəndə narkoitik ticarətinin reallaşdığı ən böyük satış platforması idi. Qərbli həmkarlarından fərqli olaraq, elə mənzərə yaranıb ki, sanki Rusiyanın narkotiklərlə mübarizə orqanları narkoticarət kastasının ən aşağı rütbəli üzvləri olan narkokuryerlərin mütəmadi həbs olunmasına baxmayaraq, "Hidra"nı bağlamaq üçün birbaşa cəhd göstərməyiblər. Nəticədə, "Hidra" hər hansı digər məşhur şəbəkələr-



dən daha uzun müddət fəaliyyət göstərib və ABŞ, yaxud da Qərbi Avropada indiyə qədər fəaliyyət göstərən hər hansı onlayn "qara bazar"dan daha çox böyüyüb.

İllər ərzində "Hidra" ticarət platforması topdansatıcılardan tutmuş, son alıcılara qədər müxtəlif bazar seqmentlərinin üzvlərinə anonim ünsiyyət qurmağa imkan verən bir ekosistem yaratmışdı. 2020-ci ilin aprel ayında Rusiya üzrə 417 000-dən çox unikal narkotik nümunəsini təhlili nəticəsində aşkara çıxarılıb ki, narkotik bazarında ən populyar məhsullar mefedron (31%), marixuana (18%), amfetamin (13%) və alfa-PVP (12%) olub. "Hidra" Rusiyanın bütün bölgələrində - 1129 müxtəlif yaşayış məntəqəsində (şəhərlər, qəsəbələr və kənd yerləri) fəaliyyət göstərib.

"Chainalysis" (2021) "Hidra"nın 2020-ci ilin qlobal "darknet" bazar gəlirindəki payını 75% qiymətləndirirdi. "Hidra"nın miqyası ümumi kriptovalyuta bazarına əhəmiyyətli dərəcədə təsir edib. Belə ki, "Hidra"dan istifadə edən istehlakçı əməliyyatlarında bəzi kriptovalyuta birjalarının gəlirlərinin əhəmiyyətli bir hissəsinin payı olub(ABŞ Circuit Court, 2023; Reuters, 2022).

Xüsusilə ABŞ Ədliyyə Nazirliyi "Hidra"nı "dünyanın ən böyük və ən qədim qara şəbəkə bazarı" adlandırıb.

Digər qeyri-qanuni bazarlar kimi, "Hidra" da digər məhsullar (saxta pasportlar, sənədlər, pullar, SİM kartlar və s.) və xidmətlər (Yeni mağazaların qrafik dizaynı, şəxsi tapmaq üçün şəxsi məlumat bazalarından istifadə) satırdı. "Hidra"nı ABŞ və Avropadakı məşhur "qara bazar"lardan fərqləndirən bir xüsusiyyət onun çatdırılma üsulu idi. "Darknet" bazarlarının əksəriyyəti poçt sifarişindən istifadə edir, ya da qanuni kuryerləri meydana salırlar. Nəticə etibarı ilə "Hidra" Rusiyadakı sələfi RAMP sistemi ilə işləyirdi. Satıcılar tərəfindən işə götürülən kuryerlər əməliyyata girişməmişdən əvvəl narkotikləri bütün şəhərdə gizlədirlər. Daha sonra satıcı maddənin növünü, miqdarını, təxmini yerini və qiymətini "Hidra" saytında dərc edir. Digər məşhur şəbəkələr malları "Hidra"dan "Tor" brauzeri vasitəsilə onlayn əldə edilə bilərdilər. Anonim profil yaratmaqla, istənilən istifadəçi saytı nəzərdən keçirə və mövcud məhsulları narkotik növü, mağazalar, yer, qiymət və istədiyi həcmə görə sifariş edə bilərdi.

Müştəri istədiyi məhsula qərar verən kimi ödəniş bitkoinlər vasitəsilə həyata keçirilib. Müştərilərin platformaya bitkoin yatırmaq üçün adətən iki variantı olub. Birincisi, xarici bazardan bitkoinlər almaq idi. Sonra vəsait ticarət platforması tərəfindən verilən ünvana köçürülə bilərdi. Digər variant isə Rusiyanın QIWI maliyyə şirkəti tərəfindən təqdim edilən ödəniş xidməti olan QIWI pul kisəsindən istifadə etmək olub. Şirkətin Rusiya ərazisində bankomata bənzər terminalları olduğundan, müştəri "Hidra" tərəfindən dəstəklənən bir çox kriptovalyuta mübadiləsi xidmətlərindən birini istifadə edərək, sadəcə olaraq nağd pul yatırıb bitkoinlərə dəyişə bilərdi.

Nəzərə alsaq ki, terminallardan istifadə etmək üçün identifikasiya tələb olunmur, pul yatırmanın bu üsulu alıcılar üçün kifayət qədər anonimlik təmin edib. Bildiyimiz kimi, bu terminallar "Hidra"nın populyarlığında həlledici rol oynayıb, çünki kriptovalyutanı anonim şəkildə qəbul etməyi xeyli asanlaşdırıb.

"Hidra" veb-saytındakı istifadəçi təlimatında QIWI terminallarından ödəniş üçün necə istifadə ediləcəyinə dair ətraflı təlimatların yer aldığı bir neçə səhifə də olub. Ödənişdən sonra müştəri xəzinənin yeri, o cümlədən fotoşəkillər və GPS koordinatları haqqında ətraflı məlumat əldə edirmiş. Belə ki, satıcı ilə alıcı arasında fiziki təmas olmurmuş. Müştəri bitkoinlərdən istifadə etdiyi və ya birbaşa QIWI terminalına nağd pul qoyduğu müddətcə maliyyə əməliyyatı anonim olub. Alıcı ilə satıcı arasında əsas ünsiyyət kanalı "Hidra" saytındakı söhbət sistemi vasitəsilə həyata keçirilib.

**Hazırladı:**
**Asya ŞÜKÜROVA**

## Əyləncə səhifəsi

# "Huawei" smartfonlarında insanları "soyundurmaq" funksiyası tapıldı

**Yeni "Huawei" smartfonlarında olan süni intellekt (AI) insanları fotoşəkillərdə "soyundurmaq" qabiliyyətinə malikdir. Lent.az xəbər verir ki, Çinin "Guang Ming Daily" nəşri buna diqqət çəkib.**



"Huawei Pura 70" seriyalı cihazlarda fotoşəkilləri redaktə edə bilən süni intellekt funksiyaları var - xüsusən də şəkillərdəki lazımsız obyektləri silmək. Cihazların ilk istifadəçilərindən bəziləri sosial şəbəkələrdə süni intellektin digər şeylərlə yanaşı insanları "soyundura" biləcəyini söyləyib.

İstehlakçılar telefonun daxili neyron şəbəkəsinin fotoşəkillərdəki insanların bəzi geyim əşyalarını çıxarmağa qadir olduğunu göstərən şəkillər paylaşıblar. Lakin "Huawei" bu funksiya haqqında məlumat verməyib. Onu "Huawei Pura 70" qadcetlərində tapan istifadəçilər qeyd ediblər ki, bu seçim kifayət qədər effektiv işləyir.

"Huawei" sosial şəbəkələrdəki mesajlara cavab verib. Korporasiya bildirib ki, süni intellektə əsaslanan retuş alətləri həqiqətən də fotoşəkillərdə bəzi detalları silməyə qadirdir, lakin funksiya gözlənildiyi kimi işləmir. Şirkət nümayəndələri növbəti yeniləmədə problemləri aradan qaldıracaqlarına söz veriblər.


**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.



HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.



Qəzet 1991-ci ildən çıxır.



# 143 milyonluq məhkəmə işi...

## "Nəcməddin Sadıkov kabinetinə çağırıb 500 min manat verdi ki, aparıb Nizami Məmmədova çatdırım..."

**Bakı Hərbi Məhkəməsində Müdafiə Nazirliyinin həbs edilmiş Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi, general-mayor Nizami Ağaoğlan oğlu Məmmədov, Hərbi Hava Qüvvələrinin (HHQ) Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Nurəddin oğlu Kazımov, Quru qoşunların maliyyə idarəsinin sabiq rəisi, polkovnik Bayram Tahir oğlu Bayramov və Maliyyə idarəsinin zabiti Vüsal Ədalət oğlu Əlizadənin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Hakim Fikrət Əliyevin sədrliyi ilə baş tutan məhkəmə prosesində satınalma ilə əlaqədar Müdafiə Nazirliyi ilə müqavilə əsasında işləyən şirkət rəhbərləri və eyni cinayət işi üzrə, lakin müxtəlif epizodlarla həbsdə olan təqsirləndirilən şəxslər bu iş üzrə şahid kimi ifadə veriblər.

İlk olaraq 2015-2019-cu illərdə Müdafiə Nazirliyinin Satınalma və Təchizat İdarəsinin rəisi işləmiş Məlikməmməd Oruc oğlu Qurbanov şahid qismində ifadə verib. Hüquqlarını müdafiə edən Ceyhun Əliyevin iştirakı ilə ifadə verən Qurbanova prosesə sədrlik edən hakim Fikrət Əliyev onun şahid kimi hüquqlarını izah edib. Sonra M.Qurbanov 2019-cu ildə ordu sıralarından tərxis olunana kimi son 4 ildə idarə rəisi işlədiyini bildirib:

"Tapşırıqları birbaşa həmin vaxt nazirliyin Baş Qərargah rəisi işləyən Nəcməddin Sadıqovdan alırdım. İşlədiyim dövrdə 2 dəfə Maliyyə və Büdcə İdarəsinin rəisi işləmiş Nizami Məmmədova pul vermişəm. Nəcməddin Sadıkov çağırıb kabinetinə 2018-ci ildə 300 min, 2019-cu ildə isə 500 min manat pulu mənə verib ki, aparıb Nizami Məmmədova verim. Mən də aparıb vermişəm. Mən şirkətlərdən idarəyə gələn təkliflərlə bağlı Nəcməddin Sadıkova məruzə edirdim. O da bir neçə gün sonra məni çağırıb deyirdi ki, hansı şirkətlər olar, hansı şirkətlər olmaz. 12 nəfərdən ibarət tender komissiyasında fəaliyyət göstərirdi, orada müxtəlif nazirliklərin nümayəndələri təmsil olunurdu. Tender Komissiyasının sədri mənim müavinim idi. Əsasən Azərsun Holdinq şirkətinə daxil olan- "San Fud", "Abşeron", "Azərsun Kənd Təsərrüfatı Məhsulları" və digər törəmə şirkətlərə tenderdə iştirak etməyə icazə verilirdi.

Nizami Məmmədova gəlincə, onun satınalma və təhcizata heç bir aidiyyatı olmayıb, bağlanılan müqavilələrdə, danışıqlarda iştirak etməyib, hansı məbləğə müqavilələr bağlanıb- bağlanmayacağından xəbəri olmurdu. Mənim işlədiyim 4 il ərzində nazirlik tərəfindən ümumilikdə şirkətlərdən 19 milyon 600 min manat pul alınıb. Pullar əsasən "Azərsun Holdinq"dən gəlirdi".

Məhkəmə prosesi may ayının 3-nə kimi təxirə salınıb.

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə ümumilikdə dövlətə dəymiş ziyan 143 milyon manatdır. Cinayət işləri ayrı-ayrı icraatlarda baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib. İstintaq dövründə dövlətə vurulmuş ümumi ziyanın 40 milyon manatı ödənilib. Cinayət işi üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb. Təqsirləndirilən şəxslərin hər birinə Cinayət Məcəlləsinin 179.4-cü (Mənimsəmə, xüsusi ilə külli miqdarda ziyan vurmaqla) maddəsi ilə ittiham irəli sürülüb.

**KƏNAN**

# Səbaildə gecə əməliyyatı...

## Kəsilən ağaclar, betonqarışdıran maşınlar və "pul seli"

## İlham Məmmədovun "vahid pəncərə" sistemindən kimlər nələr qazanır?





**Son vaxtlar ölkə mediasında Səbail Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri İlham Məmmədovun Qafur Məmmədov adına parkdakı yaşıllıqlara divan tutması, park ərazisini işbazlara satması ilə bağlı məlumatlar yer almaqdadır. İTV-nin Səbail rayonunda apardığı çəkilişlər və hazırladığı süjetlər də rayon ərazisində qanunsuz tikililərin "ayaq açıb yeridiyini", normal tendensiyaya çevrildiyini göstərir.**

Maraqlıdır ki, bütün bunların fonunda Səbail Rayon İcra Hakimiyyəti heç nə olmamış kimi susmaqda, media və televiziyada yer alan ittihamlara heyrətamiz dərəcədə laqeyd münasibət bəsləməkdədir. Ən pisi isə odur ki, bunca tənqidlərə rəğmən Səbail əraizində, eləcə də Qafur Məmmədiv parkında ağac kəsimi və qanunsuz tikinti işləri davam etməkdə, "çiçəklənməkdədir".

### İlham Məmmədovdan "işgüzar tövsiyə": "Nə işiniz varsa gecə görün!"

Medianın təzyiqlərinə baxmayaraq, Qafur Məmmədov adına parkda tikinti prosesinin davam etməsinə səbəb Səbail Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri İlham Məmmədovun pula olan hədsiz sevgisidir. Tutduğu vəzifədən sui-istifadə edərək özünü Səbail rayonunun hakimi-mütləqi kimi aparan İlham Məmmədov, tənqidlərin artmasından sonra park ərazisini satdığı şəxslərə maraqlı tövsiyə verib. İcra yetkilisi bildirib ki, "kimin nə işi varsa gecə görsün. Elə edin ki, səhər açılandan axşama qədər əraziyə gələn hər kəs burada hər hansı iş prosesinə şahid olmasın".

İlham Məmmədovun işgüzar tövsiyəsindən sonra Qafur Məmmədov parkı gecə saatlarında əsl tikinti meydançasına çevrilib. Kəsilən ağacların naləsi, betonqarışdıran maşınların gurultusu parkı başına götürür. İlham Məmmədov gecə görülən işlərin "bəhrəsini" isə səhər görür. İddialara görə, axşam görülən hər iş gündüz saatlarında İlham Məmmədovun cibinə pul şəklində daxil olur ki, bu da onu yeni qanunsuzluqlara həvəsləndirir.

### Ramin Abdullayev və Namiq Hümmətovdan gecə əməliyyatına "töhfə": "Pulunu ödəyin, nə edirsinizsə edin!

İstər Qafur Məmmədov parkında, istərsə də Səbail 32 ünvanında həyata keçirilən qanunsuz tikintilərdə daha bir neçə məşhur isim diqqət çəkir ki, bunlar da Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nəzdində fəaliyyət göstərən Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin İdarə Heyətinin sədri Ramin Abdullayev və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədrinin birinci müavini Namiq Hümmətovdur. İddialara görə, İlham Məmmədov Səbail rayonunda həyata keçirilən bütün qanunsuz tikililəri, həm də bu şəxslərlə razılaşdırır, onların da "xeyir-duasını" alır.

Prosesi "sadələşdirmək", özünün Səbail ərazisində birmənalı söz sahibi olduğunu nümayiş etdirmək üçün İlham Məmmədov "vahid pəncərə" sistemi formalaşdırıb. Deyilənə görə, o, ərazidə qanunsuz tikinti işi aparmaq istəyən işbazlardan sadəcə özünə çatacaq pulu deyil, həm də Ramin Abdullayev və Namiq Hümmətova çatacaq vəsaiti də tələb edir.

İlham Məmmədovun bu məsələdə iş adamları ilə onlar arasında makler-lik etməsi Ramin Abdullayev və Namiq Hümmətovun da ürəyincədir. Çünki bu, Ramin Abdullayev və Namiq Hümmətova üzə çıxmadan, gözə görünmədən böyük pullar qazanmasını təmin edir.

Ümumiyyətlə, deyilənə görə, İlham Məmmədov kimi Ramin Abdullayev və Namiq Hümmətovun da bu məsələyə yanaşması eynidir: "Pulunu ödəyin, nə edirsinizsə edin!".

### Səbail 32 ünvanında 6 ədəd dördmərtəbəli tikinti və milyonluq razılaşma...

İlham Məmmədov və ortaqlarının Səbail rayonu ərazisində həyata keçirdiyi qanunsuz tikililərdən biri də Səbail 32 ünvanındakı 6 ədəd dördmərtəbəli tikilidir. Bəzi mənbələr iddia edir ki, bu tikililər üçün iş adamlarından bir milyondan artıq pul alan İlham Məmmədov ərazidəki 1600 kvadratlıq anbar üçün də sahibkarın böyük məbləğdə vəsait ödəməsini təmin edib.

"Allah boş duran bəndəni sevməz" kəlamını əldə rəhbər tutan İlham Məmmədov, bu gün də rayon ərazisindəki hər qarış boş torpağı pula çevirməkdə, öz sərvətini böyük vüsətlə genişləndirməkdədir. Qəribədir ki, İlham Məmmədovun bu özbaşınalığına nə Səbail Rayon İcra Hakimiyyəti, nə Bakı Şəhər İcra Hakimiyyəti, nə də digər instansiyalar tərəfindən "dur"deyən tapılmır.

Görünən odur ki, İlham Məmmədovun qanunsuz fəaliyyəti bir çox şəxsin ürəyincədir və Səbail Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdirinin özünü bunca arxayın aparması heç də səbəbsiz deyil. Ancaq ümid edirik ki, İlham Məmmədova, eləcə də Ramin Abdullayev, Namiq Hümmətov və digər yetkililərin özbaşınalığına "dur" deyən tapılacaq, bu şəxslər törətdikləri qanunsuzluqlara görə hüquq müstəvisində cavab verəcəklər.

**H.Rəsulov**

***Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# "Dinimiz buyurub ki, öz ölkənə bağlı ol!"

## Yaşar Qurbanov: "Əgər bir ilahiyyatçı insanları hansısa bir ölkəyə bağlı olmağa çağırırsa, deməli, bunun təməlində səhv var"

Narkomaniyanın qurbanları narkotiklərə doğru yol qət edənə qədər bir sıra mərhələlərdən keçirlər. İlk öncə yalnızlaşırlar, həyat onları təkləyir, depressisyanın ağuşuna düşürlər. Onların bir çoxları da şikarına çevrildikləri bəlanın miqyasından, onların düşdükləri yoldan geri dönmənin necə çətin olduğundan xəbərsiz olurlar. Yəni bilməməzlik, cahillik, məlumatsızlıq ucbatından narkotacirlərin "ovuna" çevrilirlər desək, yəqin ki, yanılmarıq. Bəs iman, din, Allaha bağlılıq narkotiklərdən qurtulmaqda nə kimi dəstək ola bilər? Bu barədə tanınmış ilahiyyatçı Yaşar Qurbanovla söhbətləşdik.



"Narkomaniya və bu kimi əməllər insanı Allahdan uzaqlaşdırmaq üçün ən böyük şeytan əməlidir"

***- Yaşar müəllim, məlum olduğu kimi Azərbaycanda narkomaniya həddən çox yayılmaqdadır. Bir ilahiyyatçı kimi deyə bilərsinizmi, insanların pis vərdişlərdən qurtulmasında din necə rol oynaya bilər? Oynaya bilərsə, bunu necə görürsünüz?***

- Birinci onu deyim ki, əlbəttə, dinimizdə narkomaniya ən pis günahlardan, qadağalardan biri sayılır. Qurani-Kərimdə bu haqda çox sayda ayələr var ki, ümumiyyətlə narkomaniya olsun, spirtli içki aludəçiliyi olsun, sərxoşluq olsun, bütün bunların haram edildiyini Allah buyurub. Yəni Qurani-Kərimdə bunların nə qədər böyük günah və şeytan əməli olduğu buyurulur. Əl-Maidə surəsinin 90-91-ci ayələrində Allah bunu izah edib. Allah-Təala bu ayələrdə buyurur ki, "Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici (içki) də, qumar da, (tapınmaq məqsədilə) dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız". Bunlar qumar, bütlər, fal oxları, şeytan əməli olan murdar şeylərdir.

Sonra 91-ci ayədə buyurur ki, "Şübhəsiz ki, şeytan icki və qumarla aranızda düşmənçilik və kin salmaq, sizi Allahı anmaqdan və namaz qılmaqdan uzaqlaşdırmaq istəyir. Artıq bunlara son qoyacaqsınızmı?!", deyə ayənin sonunda da təhdid var. Yəni ümumiyyətlə, narkomaniya və bu kimi əməllər Allahdan uzaqlaşdırmaq üçün ən böyük şeytan əməlidir. Və Allah-Təala buyurur ki, nə zaman buna son qoyacaqsınız? Çünki, bilirsiniz, bu işlə məşğul olanların çoxu dindən, ibadətdən, Allahdan uzaq - hər bir yaxşı əməldən uzaq və pis əməllərdə öndə gedənlərdir. Ümumiyyətlə, insanın ağlını uyuşduran hər bir şey dinimizə görə haramdır. İstər içki, istər narkotik maddələr olsun, insanın ağlını alan, insanın vərdişlərini dəyişdirən, insanı zəiflədən, onu müəyyən çirkin hallara soxan bütün hallar haramdır. Bəziləri deyə bilər ki, dinimizdə insanın ağlını əlindən alan içki olaraq gəlib. Həmçinin də başqa bir rəvayət peyğəmbərimizdən gəlib ki, insanı haldan-hala salan, ağlını əlindən alan içki və hər bir maddə, bura heroin də daxildir, bunlar dinimizdə ən böyük haram və günahdır.

***- İnsanların hansısa sekta və zərərli dini cərəyanların təsirinə düşməsinin qarşısını dövlətin dinin dəyərləri tədris etməsi ala bilərmi? Sizcə, dövlət bunun üçün bir konsepsiya hazırlamalıdır, yoxsa prosesi öz axarına buraxmalıdır?***

- O məsələləri mən bilmirəm, amma bu problemi aradan qaldırmaq üçün həqiqətən peyğəmbərimizin öyüd-nəsihətləri, Uca Allahın öyüd nəsihətləri çox önəmlidir. Çünki görürsən ki, bu yola düşənlərin çoxunda inamsızlıq, Allahın rəhmətindən ümid üzmək, özünü cəmiyyətdə tək hiss etmək, insanlardan uzaqlaşmaq və s. dinimizin qadağan etdiyi cürbəcür şeylər var. Dinimiz nəyi qadağan edir? İnsanın kədərlənməsi, depressiya və s. bu kimi şeylər dinimizdə qadağandır. Qurani Kərimdə buyrulur ki, Allahın rəhmətindən ümidinizi üzməyin. Görürsən, bu duruma düşənlərin çoxu bu problemlə rastlaşan insanlardır. Necə deyərlər, başlanğıc qəm, kədər, hüzn, depressiya olur, sonra çıxış yolunu pis vərdişlərdə görürlər. Ona görə, dinimiz bunları müalicə edir.

Bir insan həqiqətən də dini dəyərlərə bağlı olsa, həm bu yola düşməz, həm də bu yola düşəndən sonra geri qayıdar. Çünki burada mənəviyyat, insanın ruhu önəmlidir. Bəzən ancaq insanın bədəninə önəm verirlər, ancaq ruhi məəslələrinə, ruhun sağlam olmasına önəm verilmir. Ona görə, dinimiz ancaq ilk öncədən buna başlayır ki, insanın Allaha bağlılığı, ruhu gözəl olsun, başqa çətin yollara düşməsin. Əlbəttə, bu yoldan yayındırmaq üçün yaxşı olardı ki, çoxlu məqalələr yazılsın, verilişlər olsun.

Biz hər zaman ilahiyyatçı olaraq bu məsələlərə toxunuruq ki, insanın ruhu sağlam olmalıdır. Radio verilişlərində bu məsələlərə toxunanadan sonra, şəxsən özüm bilmişəm ki, nə qədər insan müraciət edib. Bildiriblər ki, bu verilişlər depressiyadan çıxmağa yardımçı oldu, başqa yollara düşməyi fikirləşirdim, hətta bəzən olur ki, intihar etməyi düşünürəmg Yəni ruh qidalanmasa, bu problemlərdən qurtulmaq çox çətindir.

> Biz hər zaman ilahiyyatçı olaraq bu məsələlərə toxunuruq ki, insanın ruhu sağlam olmalıdır. Radio verilişlərində bu məsələlərə toxunanadan sonra, şəxsən özüm bilmişəm ki, nə qədər insan müraciət edib. Bildiriblər ki, bu verilişlər depressiyadan çıxmağa yardımçı oldu, başqa yollara düşməyi fikirləşirdim, hətta bəzən olur ki, intihar etməyi düşünürəm... Yəni ruh qidalanmasa, bu problemlərdən qurtulmaq çox çətindir.

***- Yaşar müəllim, sizcə elementar mənəvi dəyərlər rəhbər alınmaqla, toplumun daha əxlaqlı olması məqsədilə dini bilgilərin insanlara təbliği dövlət tərəfindən aparılmalıdırmı?***

- Əlbəttə, aparılsa gözəl olar. Azərbaycanda İlahiyyat Universiteti də var. Allaha həmd olsun, insanlar gedib orada təhsil ala bilirlər. Bu sahə üzrə müəyyən qədər mütəxəssislərimiz, ilahiyyatçılarımız var. Əlbəttə, bu sahədə maarifləndirməyə daha çox yer verilsə, gözəl olar. Onsuz da bunu ilahiyyatçılar aparırlar. Cümə xütbələrində bu məsələlərə toxunurlar. Cümə namazlarına gedənlər bunu bilirlər. Məscid səviyyəsində bu məsələlərə faydalı olsun deyə hər zaman toxunulur. Biz öz verilişlərimizdə toxunuruq. Təbii, buna daha çox önəm verilsə, inanıram ki, daha çox faydalı olar.

***- Bəs, sizcə, məktəblərdə şagirdlərə heç olmasa elementar səviyyədə dini biliklər verməklə yeniyetmə və gəncləri sonrakı pis vərdişlərin toruna düşməkdən qoruya bilərmi?***

- Əlbəttə, belə tədbirlər yaxşı olar. Bu sahədə hüquq-mühafizə orqanları şagirdlərlə görüşür, onlara nəsihət verirlər. Bu çox gözəl haldır, özümüz övladlarımızdan eşidirik. Oğlum məktəbdən gələrkən deyir ki, bu gün tədbir keçirildi, hüquq mühafizə orqanları çox gözəl biliklər verdi. Görürəm ki, bu bəlanın qarşısının alınmasında belə tədbirlərin çox təsiri olur. Şübhəsiz, bu tədbirlərə əlavə də olunsa, dini biliklər də verilsə, bir insanın ruhunun qidası, ruhunun sağlam olması, Allaha bağlı olması, pis vərdişlərin Allah dərgahında nə dərəcədə təhlükəli olması, ilk növbədə valideynlərin üzünə ağ olmanın nə qədər təhlükəli olması haqda dini biliklərin olması inanıram ki, daha da faydalı və prosesə daha çox dəstək olar.

***- Bəllidir ki, narkoman özü bəlaya düçar olmaqla bərabər, yaxınlarını da həmin bəlanın içinə salır. Bilirik ki, müxtəlif yad cərəyanların təsiri altında olan din adamları da cəmiyyətdə zərərli fikir, düşüncələr yayırlar. Məsələn, İrana bağlı din adamlarını misal göstərə bilərik. Bu problemin həll yolunu necə görürsünüz?***

- Mənim fikrimcə, bu məsələlərdə düzgün dini təbliğat aparılmalıdır. İnsanlara düzgün dini təbliğat aparılmalıdır. Qurani-Kərim, peyğəmbərimizin kəlamları insanlara düzgün başa salınmalıdır. Əgər insanlar tərəfindən düzgün dini biliklər əldə edilsə, heç bir ölkəyə bağlı olmazlar. Bunun əsasında düzgün dini təbliğat durur. Əgər bir ilahiyyatçı insanları hansısa bir ölkəyə bağlı olmağa çağırırsa, deməli, bunun təməlində səhv var. Qurani-Kərimin kəlamları, peyğəmbərin kəlamları, alimlərin kəlamları nə deyir? Hər insan öz ölkəsinə, yaşadığı ölkəyə bağlı olmalıdır. Yəni öz xalqını, öz vətənini, öz dövlətini sevməlidir. Hansısa bir xarici qüvvələrin din adı altında fitnə-fəsadını öz ölkəsinə gətirməli deyil. Ola bilər ki, hansısa bir ölkənin siyasi marağı olsun. Onun dinlə heç bir əlaqəsi yoxdur. Yəni bunu ayırmaq lazımdır ki, düzgün din nədir. Peyğəmbərimiz nə deyir - Allah-Təala Qurani-Kərimdə nə deyir: Allaha, Rəsuluna və sizdən olan əmr sahiblərinə tabe olun, itaət edin. Əmr sahibi kimdir - ölkə rəhbəri. Mən ölkə rəhbərimə tabe olmalıyam. Ölkə rəhbərimin buyruqlarının, onun ətrafında birləşməliyik. Mən niyə görə hansısa bir xarici ölkənin rəhbərinin siyasətinə tabe olmalıyam? Bu dini cəhətdən düzgün deyil. Mən verilişlərimdə, dərslərimdə hər zaman vurğulayıram, dinimiz buyurub ki, öz ölkənə bağlı ol! Peyğəmbərimiz buyurub ki, öz ölkənə bağlı ol! Hətta peyğəmbərimiz deyir ki, öz ölkə rəhbəriniz ətrafında toplanın. Ona görə də dini biliklər düzgün təbliğ olunmalıdır. Qurani-Kərim, peyğəmbərimiz buyurub ki, öz ölkənə, vətəninə sadiq olun, ölkə rəhbərin ətrafında toplaşın, başqa ölkənin rəhbərini deyil. Həmçinin, o kəslər belə təbliğat aparırlarsa ki, insanlarımız başqa ölkənin rəhbərliyinə, fitnəsinə tabe olsunlar, onlara qarşı da mübarizə aparılmalıdır. Bildirilməlidir ki, bu insan ilahiyyatçı deyil. Olsa-olsa hansısa ölkənin siyasi maraqlarını din adı altında insanlara sırımağa çalışan yad insanlardır.

***- Yeri gəlmişkən, bir müddət əvvəl Xocasən qəsəbəsində məscidin axundu narkotik ticarəti ittihamı ilə tutuldu. Ardınca isə bu yaxınlarda Neftçalada məscidin axundu narkotik ticarəti üstündə yaxalandı...***

- Bəli, bəli. Bu biabırçılıqdır.

***- Sizcə, bu şəxslər insanlara dini necə təbliğ edə bilərlər ki, özləri narkotik ticarəti ilə məşğuldurlar?***

- Elə problem bundadır ki, əgər o insan narkotik ticarəti ilə məşğuldursa və öz nəfsini, ruhunu şeytana satıbsa, insanlara necə nümunə olacaq?! Hansı ki, din adamları öz əməlləri, hərəkətləri, əxlaqı, insanlarla gözəl davranışı, peyğəmbərimizin gözəl davranışlarını bilməsi ilə nümunə olmalıdır... Bu insanlar belə əməllə məşğuldursa, digər insanlarda biz nə eyib axtara bilərik? Bu biabırçılıqdır, dinlə əlaqəsi yoxdur. Bu, din donu geyinmiş bəzi təhlükəli qüvvələrin oyunun da ola bilər.

**Söhbətləşdi:**
**Ülviyyə ŞÜKÜROVA**



# "Mən siyasi məhbus deyiləm"

## Nazim Bəydəmirli: "Mənim adımdan istifadə olunmasını istəmirəm"

**Keçmiş deputat Nazim Bəydəmirlinin cinayət işi üzrə məhkəmə prosesi başlayıb. "Qafqazinfo" xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən ilk iclasda təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib, ilkin dinləmələr keçirilib.**

Nazim Bəydəmirlinin vəkili prosesdə bir sıra vəsatətlə çıxış edib.

Həmin vəsatətlərdən biri seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi ilə bağlı olub. Vəkil vəsatətini onunla əsaslandırıb ki, müvəkkili ictimai şəxsdir, bundan əvvəl cinayət törətməyib, həmçinin şahidlərə təsir etmək imkanı yoxdur.

Müdafiə tərəfinin digər vəsatəti iddia olunan cinayət işinin cəlbetmə müddətinin keçməsi ilə bağlıdır. Vəkil hesab edir ki, iş materiallarında iddia olunan cinayət əməli 30 il əvvəl baş verib. Bu səbəbdən cinayət təqibinə xitam verilməlidir.

Nazim Bəydəmirli özü də vəkilinin vəsatətlərinə münasibət bildirib: "Guya 1996-cı ildə baş vermiş hadisə ilə bağlı mənə ittiham irəli sürülüb. 4 iyulda mənə ittiham verilib, hansı ki, həmin gün mən guya zərərçəkmiş olan Ədalət Bağırovdan şikayətə gəlmişdim. Mən ondan heç nə tələb etməmişəm. Biz şərik olmuşuq, şikayətimdə də onu demək istəyirdim ki, mənim onunla ortaq şirkətimdə 30 faiz payım var. 6 saat sonra məni elə Ədalət Bağırovun şikayəti əsasında saxladılar".

Nazim Bəydəmirli son olaraq özünün siyasi məhbus hesab etmədiyini qeyd edib: "Mən siyasi məhbus deyiləm. Çünki siyasi fəaliyyətim yoxdur. Mənim adımdan istifadə olunmasını istəmirəm. Mən siyasi fəaliyyətimə görə həbs edilməmişəm. İqtidara və müxalifətə də eyni məsafədə olan adamam. Mən dövlətimə, vətənimə sadiq adamam".

Prokuror vəsatətlərin təmin edilməməsini, cinayət işinin məhkəmə baxışına verilməsini istəyib.

Məhkəmə prokurorla razılaşıb. Müdafiə tərəfinin qaldırdığı vəsatətlər rədd edilib.

İlk baxış iclası mayın 13-nə təyin edilib.

Qeyd edək ki, N.Bəydəmirli 9 ay əvvəl iki nəfəri şantaj etmək ittihamı ilə həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 182.2.4-cü (xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu ilə tələb etmə) maddəsi ilə ittiham irəli sürülüb. İş üzrə iki nəfər-İbrahimov Mürsəl Fəyaz oğlu və Bağırov Ədalət Əziz oğlu zərərçəkmiş qismində tanınıb.

# ADP hökuməti quru sərhədləri açmağa çağırdı

## "Ən azı vətəndaşlarımızın ən çox səfər etdiyi Türkiyə və Gürcüstanla olan quru sərhədləri tezliklə açılmalıdır"

**ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, iclasda Türkiyə-Rusiya monitorinq qrupunun özünü buraxması alqışlanıb. "Bu hadisə də onu təsdiq edir ki, Azərbaycanın Qarabağ bölgəsində artıq terrorizm təhlükəsi yoxdur, erməni separatist hərəkatı başa çatıb və Rusiya silahlı kontigentinin bizim ölkəmizdə qalmasına heç bir bəhanə qalmayıb", - deyə İH üzvləri bildirib.**



Partiya Qubad İbadoğlunun həbsdən azad edilməsini alqışlayıb və digər siyasi məhbusların da azad olunmasının vacibliyini vurğulayıb

Azərbaycan Prezidentinin Moskva səfərinə diqqət çəkən ADP İH Rusiya prezidentinin cəhdlərinə baxmayaraq BAM-ın Azərbaycanın maraqlarına cavab verməməsinin vurğulanması və ölkəmizin İpək yolu və şimal-cənub marşurutlarına üstünlük verməsinin nümayiş etdirilməsini təqdir edib. Qeyd edilib ki, Rusiya ilə yalnız qarşılıqlı faydalı əməkdaşlıq modelində münasibətlərin davam etdirilməsi milli maraqlarımıza uyğundur.

Həmçinin, İlham Əliyevin Almaniya səfərinə toxunan İH üzvləri bu səfərin Avropa İttifaqının əsas dövləti olaraq Almaniya ilə çoxtərəfli siyasi-iqtisadi əlaqələrinin inkişafı baxımından önəmini qeyd ediblər. Qeyd edilib ki, Almaniya ilə əlaqələrimizin inkişafı xalqımızın gələcək siyasi maraqları baxımından xüsusilə önəmlidir.

Ölkənin quru sərhədlərinin bağlı saxlanmasının səbəblərinin birinci şəxsin dilindən eşidilməsinə rəğmən, hətta təhlükəsizlik maraqlarını qorumaq naminə olsa belə, vətəndaşlarımıza maddi-mənəvi ziyan vurulmasına haqq qazandırmağın mümkün olmadığı iclasda bir daha qeyd olunub. Bildirilib ki, ən azı vətəndaşlarımızın ən çox səfər etdiyi Türkiyə və Gürcüstanla olan quru sərhədləri tezliklə açılmalıdır.

Qırğızıstan Prezidentinin Azərbaycan səfərinə toxunan İH üzvləri son zamanlar ölkəmizə Orta Asiyanın türk respublika başçılarının səfərlərini yüksək dəyərləndiriblər və qardaş ölkələrlə ikitərəfli və çoxtərəfli əlaqələrimizin yüksələn xətlə inkişaf etməsinin mühüm əhəmiyyətini qeyd ediblər.

ADP İH-də ABŞ-ın dövlət katibi A.Blinkenin İ.Əliyev və N.Paşinyanla son telefon danışıqlarına da münasibət bildirilib. ABŞ rəsmisinin Azərbaycan və Ermənistanın sülh razılaşması istiqamətindəki səylərə, regiondakı vəziyyət və insan hüquqları məsələlərinə obyektiv mövqeyi alqışlanıb və bunlar ABŞ-ın regionda sülhdə maraqlı olmasının təzahürü kimi dəyərləndirilib. Eyni zamanda partiya İH Azərbaycan hakimiyyətini ABŞ-la münasibətləri daha da inkişaf etdirməyə çağırıb.

ADP İH-də Qubad İbadoğlunun həbsdən azad edilməsi alqışlanıb və digər siyasi məhbusların da həbsdən azad edilməsinin vacibliyi bir daha vurğulanıb.

"28 Aprel" Azərbaycanın Rusiya tərəfindən işğalının ildönümü ilə bağlı məsələyə diqqət çəkən partiya yetkililəri bu işğalın xalqımıza vurduğu ağır zərbələrin təsirini hələ uzun müddət unutmağın qeyri-mümkün olduğunu bildiriblər. Həmçinin qeyd edilib ki, işğalçı ölkə Azərbaycandan həmin vaxt soyğunçuluqla apardığı çoxlu miqdarda maddi-mədəniyyət nümunələrini hələ də qaytarmayıb və xalqımıza vurduğu maddi-mənəvi ziyana görə üzr istəməyib. Bildirilib ki, xalqımız bu işğalın nəticələrini heç bir zaman unutmamalı və imkan düşdükcə ən yüksək səviyyədə Rusiya dövlətinə bunu xatırlatmalıdır.

ADP İH-də Gürcüstanda və Ermənistanda siyasi vəziyyətin getdikcə gərginləşməsindən narahatlıq ifadə olunub və bu ölkələrdə aşkar şəkildə kənardan qızışdırılan siyasi gərginliyin artmasının bütün region üçün təhlükəli nəticələrə səbəb ola biləcəyi qeyd edilib.

Son zamanlar ölkədə baş verən səs-küylü intihar halları, qida sektorunda və səhiyyədə baş verən özbaşınalıq və xalqın maraqlarına zidd siyasətin yürüdülməsi məsələləri də iclasda müzakirə edilib və qeyd edilən məsələlərlə bağlı narahatlıq ifadə olunub.

**Hazırladı: KƏNAN**

# Delimitasiya ilə bağlı etiraza erməni deputatlar da qoşuldu

**Ermənistan və Azərbaycan hökumətləri arasında sərhədlərin delimitasiyası barədə əldə olunan razılaşmaya etiraz edən bir qrup sakin səhər saatlarından İrəvan-Armavir yolunu bağlayıb.**



Aksiya iştirakçılarına "Ermənistan" blokundan olan deputatlar Qeqam Manukyan və Mqer Saakyan da qoşulub.

Etirazçılar hökumət əleyhinə şüarlar səsləndirib. Polis aksiya iştirakçılarından ərazini boşaltmağı tələb edib.

Xatırladaq ki, aprelin 19-da Azərbaycan və Ermənistan hökumətləri arasında delimitasiya prosesinə Tavuş vilayətindən başlamaq və birgə komissiyanın əsasnaməsi üzərində işi iyulun 1-dək yekunlaşdırmaqla bağlı razılıq əldə edilib.

# “Teatra ancaq əyləncə vasitəsi kimi baxmaq lazım deyil”

## “Milli Dram Teatrına 30 ilin davamını qurmağa gəldim”

Müsahibimiz Akademik Milli Dram Teatrının Bədii rəhbəri, rejissor, Əməkdar İncəsənət Xadimi Mehriban Ələkbərzadədir. Uzun illər öncədən aparıcı, araşdırmaçı kimi insanların sevimlisinə çevrilən Mehriban xanımla müsahibəmizdə “Azdrama”dakı fəaliyyəti, ümumiyyətlə Azərbaycan teatrının durumu haqda suallara cavab tapmağa çalışdıq.



## Mehriban Ələkbərzadə: “Paradoks ondadır ki, kənardan gələn hər hansı yeniliyi ayaq üstə alqışlayırıq...”

***- “Azdrama”ya rəhbər təyin olunmağınız teatrsevərlər üçün sevinclə qarşılandı. Sənət adamları da inanır ki, siz çoxsaylı tamaşaçısı olan “Azdrama”nı əvvəlki səviyyəsinə qaytara biləcəksiniz. Hazırda bu istiqamətdə nə kimi planlarınız var?***

- Mən bu teatrda 1986-ci ildən çalışıram. 2010-cu ilə qədər, təxminən 30 ilə yaxın bu teatrda çalışmışam. Sonra on illik gediş oldu. Mən müxtəlif teatrlarda baş rejissor kimi çalışdım. Əvvəl elə başa düşürdüm ki, getməyim düzgün deyil, çünki bura mənim öz ana teatrımdır. Amma getməyimlə Azərbaycan teatrlarına bacardığım qədər öz töhfəmi verib, yardımımı edə bildim. Bağlanmaqda olan ”Yuğ” Teatrını ayaq üstə saxladım. Daha sonra Gənc Tamaşaçılar Teatrına getdim. O teatrın çox böyük heyəti var, 80 nəfərdən artıqdır. Bütün heyəti yığaraq, tamaşa hazırladım. Ən xırda, ən kiçik rolları oynaya bilən və ya bilməyən aktyorlara meydan verildi. Çox möhtəşəm tamaşa alındı. Musiqili Teatrda da tamaşa hazırladım. Düşünürəm ki, 10 ilə yaxın müddəti çox səmərəli istifadə etdim.

Yəqin bunlar lazım idi ki, dövr edib, təzədən bura qayıdım. “Azdrama”, yəni Milli Dram Teatrı mənim doğma evim kimidir. Mən öz doğma evimə qayıtdım. Bura 30 ilin davamını qurmağa gəldim. Hansı ki, məqsədimiz, məramımız teatrı doğrudan da ana teatra çevirməkdir. Azərbaycan teatrları içində ən ali mərtəbədə dayanan bu teatrı yenidən həmin o pilləyə qaldırmaqdır. Bunun üçün, dediyim kimi, repertuar siyasətimizdə qüsursuz əsər seçimi var. Bədii şura var. Teatr daxilində studiya yaradırıq. Universitetlərdən seçilən aktyorları da həmin studiyaya gətirərək, bizim teatrın aktyorlarından, teatrımızın korifeylərindən ustad dərsləri almasına şərait yaradacağıq. Onlar bizim ustad sənətkarlarımızla səhnədə yanaşı dayana bilmək təcrübəsi qazanacaqlar. Bu işləri həyata keçiririk.

Bundan başqa, texniki təchizat anlamında da xeyli dəyişikliklər etdik. Müəyyən işçiləri dəyişdik, daha peşəkar mütəxəsislərin işə cəlb edilməsi işini aparırıq. Başqa ölkələrdən teatrımıza sənətkarların cəlb edilməsi nəzərdə tutulub. Ölkə daxilində, həmçinin xarici ölkələrdən fərqli rejissorların dəvəti nəzərə alınıb. Bu ilin sonunda xaricdən iki rejissor dəvət edəcəyik. Gələn il isə 3 rejissor dəvət etməyi nəzərə almışıq. Əlbəttə, bunların məqsədi Azərbaycan Milli Dram Teatrının daha örnək bir yaradıcılığa sahib olduğunu, nələrə qadir olduğunu göstərə bilməkdir.

***- Bir rejissor kimi istədiyiniz nəticəni xarici, yoxsa yerli dramaturgiyadan ala bilirsiniz?***

- Mən belə bölüm etməzdim. Ümumiyyətlə, yaxşı dramaturgiya, mükəmməl dramaturgiya və pis dramaturgiya var. Pis dramaturgiyadan danışmaq istəmirəm. Əslində hamı yazır, hamı öz əsərini cilid-cilid göndərir, israrla tamaşanın hazırlanmasını istəyir. Amma onların çoxu unudur ki, bura Akademik Milli Dram Teatrıdır. Dramaturgiya çox çətin janrdır. Hamı yaza bilər, amma dramaturq olmaq çox çətin işdir. Bu teatrda əsasən qüsursuz repertuar, qüsursuz əsər olmalıdır. Əlbəttə, klassikadan danışmaq, onların əsərlərinə qiymət vermək artıqdır. Çünki onlar klassikadır, mükəmməldir.

Gertsin deyirdi ki: Teatr həyati vacib olan sualların cavab tapdığı yüksək instansiya və məkandır. Dramaturq bizi o məkana cəzb edən məzmundur. Rejissor isə, sözlər arxasında həqiqətlə təxəyyülü birləşdirən Şəxsdir.

Mən xarici dramaturgiya sevən adamam. Çünki universitet illərində hazırladığım səhnə əsərlərinin 99 faizi xarici dramaturgiyaya aid idi. Amma teatrlarda vəziyyət başqadır.

***- Reallıq nədir?***

- Reallıq odur ki, Azərbaycan tamaşaçısı xarici dramaturgiyaya meylli deyil. Xarici dramaturqun adı onu cəlb etmir. Tutaq ki, mənim çox sevdiyim Artur Miller intellektual dramaturqdur. O, bu gün bizim tamaşaçını heç bir çağırışla, heç bir vədlə, heç bir cazibə qüvvəsilə özünə çəkmir. Amma nə xoş ki, Cəlil Məmmədquluzadə çəkir. Mən Tennisi Uilymsı sevirəm. Bilirəm ki, onun əsərləri özü bir bitkin, kamil daramaturgiya nümunəsidir. Amma Azərbaycan tamaşaçısı onu anlamaq istəməyəcək. Düzdür, yaxşı mənada ən elit tamaşaçı gələcək, bu, zalın yarısı, üçdə biri olacaq. Mən populizmə işləməsəm də, daha çox insanları məşğul edə biləcək, onların ürəyinə, fikrinə, beyinlərinə sirayət edə biləcək müəlliflərin əsərlərilə işləməyə məcburam. Hələ, təbii ki, Şekspirdən danışmıram. Amma çox gözəl dramaturqlar da var ki, onları hələ səhnəyə gətirmək böyük mənada tamaşaçıya soyuq münasibətə çevrilə bilər. Əlbəttə ki, hər şeyə rəğmən mütləq hazırlanacaq intellektual əsərlər də olacaq.

Mənim arzusunda olduğum ən azı 6-7 əsər var. Tolstoy, Bulqakov, Milleri, Ulyams, Edvard Olbi, Şekspir. Bu müəlliflər bütün teatrlar üçün lazımdır. İllah da Akademik teatrlar üçün lazımdır. Doğrudur, bu milli teatrdır, amma düşünürəm ki, gələcəkdə biz xarici dramaturgiyaya müraciət etməli olsaq, ən azı seçilmiş yüksək dəyərli əsər olmalıdır. Çünki bu Avropa düşüncəsinə transferdir. Əlbəttə ki, bu mənada yunan faciələri xüsusi dəyərə malikdir. Və yunan faciələri Azərbaycan teatrı üçün həmişə maraqlı olub, amma orda bir balaca ehtiyat siqnalı yanır. Yeni dövrdə teatr antik dövrdə mövcud olmuş xəttdən o qədər də kənara çıxmır. Teatr səhnələrinin mövzusu bu ərəfədə naturalizm, dadaizm, ekspressionalizm, sürrealizm, absurdizm və postmodernizm kimi cərəyanların təsirinə məruz qalır. Bəlkə də bu normaldır.

Əsas məsələ kimi, mən düşünürəm ki, bu gün Azərbaycan klassiklərinə yeni baxış mütləqdir. İstər Hüseyn Cavidə, istər Cəfər Cabbarlıya, istər Axundzadəyə və s. Bunlar yeni rejissor, yeni təxəyyül baxışına, yeni oxunuşa, bəlli əsərləri müasir insana maraqlı edə biləcək təsvirə ehtiyac olan əsərlərdir. Mənim yanaşmama gəlincə, müasir teatrda klassika önəmlidir. Və bütün klassik əsərlərə yeni, kreativ yanaşma lazımdır. Klassik əsərlərə sabaha daşımağın yolu ancaq bundadır. Bu gün gənclik nəyi görmək istəyirsə, ona baxır. Biz tək yaşlı nəsillə deyil, yeni nəsillə işləməliyik. Ətrafımızda ancaq nostalji səbəbdən deyil, maraqlı və təxəyyül inkaasına maraq edən gənc tamaşaçılar cəlb etməliyik. Gələcək onlarladır. Və yaxud hazırlanan tamaşanın keçən əsrə aid olması primitivliyindən azad olmalıdır. Və bu təkcə görüntü məsələsi yox, beyinlərdəki sıçrayışa da aiddir. Bunları edə bilsək, gələcəkdə hədəflərimizə çıxa biləcəyik.

***- Bu vaxta kimi çoxlu tamaşalar hazırlamısınız. Təbii ki, o tamaşaların içində qadın obrazları da çoxdur. Hansı obraz Mehriban xanımın baxışında, onun aləmində özünün prototipi ola bilər?***

- Niyə məhz qadın? Mən qadınam, ona görə? Sevib, həsəd apardığım insan nümunələri var. Bunların da çoxu kişi obrazlarıdır. Bilirsiniz, mən dəfələrlə demişəm ki, bu sənətdə qadın-kişi yoxdur. Rejissor beyin və intellekt göstəricisidir. Axı rejissorluq fiziki güc, yəni əzələ peşəsi deyil. Mükəmməl fiziki gücə sahib olan kişi rejissor var ki... əslində peşə etibarı ilə rejissuraya aidiyyəti yoxdur. O kişinin rejissor intellekti, duyumu, fəhmi yoxdur. Yəni bu, qadın-kişi peşəsi deyil. Biz burda beyin gücüylə, beyin fırtınasıyla işləyirik. Bunun qadına, kişiyə dəxli yoxdur, bu, beyinlə, ağılla, zəkayla, intellektlə, fantaziyayla bağlı bir peşədir.

Mənim sevdiyim obrazlar daha çox kişi obrazlarıdır. Hərçənd ki, həmkarlarımın 99 faizi kişilərdir. Onlar da mənə bu intellekti, bu ağılı, bacarığı bağışlaya bilmirlər. Bu dünyada hamıya fərqli baxış, fərqli düşüncə, ağıl, düşünmək tərzi verilib. Tutaq ki, ona verilən həssaslığı mənə, mənə verdiyi ağlı, istedadı ona verməyib. Mən üstünlüyü-aşağılığı heç cür qəbul edə bilmirəm. Qadın-kişini də qəbul etmirəm.

“Qadın rejissurası” deyilən söz var. O sözdən acığım gəlir. Ola bilsin ki, mən qadın obrazlarına qarşı daha həssasam. Bu qədər. Bütün qəhrəmanlarımı sevirəm. Özümdən də mütləq onlara nəsə əlavə edirəm. Bütün qəhrəmanlarımda məndən nəsə bir parça var. İstər “Mənəm Mən”də, istər “Kod adı V.X.A”-da, istər ”Qatil”də, istər ”Qatar altına atılan qadın”da, istər ”Əmir Teymur”da. Lap “Əsrə bərabər gün”də də. İstənilən halda mənim tamaşalarımdan bir parça olmalıdır.

İndi sizə necə gələcək, bilmirəm, qadın deyil, amma bütün tamaşalarımın qəhrəmanlarında - Nəsimidə də, İsgəndərdə də, V.X.A-da, 37-ci qadında da məhz mən idim. ”Əsrə bərabər gün”də, Yedigeydə də mən mütləq var idim.

***- Söhbətimizin əvvəlində “bizim millət teatral millət deyil” dediniz. Nəyə əsasən bu qənaətə gəlmisiniz?***

- Biz teatra aludə xalq deyilik. Azərbaycanda teatr sənətinin kökləri xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin dünyagörüşü ilə bağlıdır. Mərasim, ayin və oyunlardakı tamaşa səndən anacaq iştirakçı olmağı istəyir. Bəlkə bu səbəbdəndir ki, biz teatra hazırlıqlı getmirik. Məsələn, ”Kosa-kosa” oyunu bizim üçün əsl teatr örnəyidir. Biz teatra çox zaman əyləncə görməyə gedirik. Biz filmi, konserti, əyləncəni, əylənməyi sevirik. Teatr isə hazırlıq tələb edir. Gəlib 2 saat, 4 saat, yeri gələndə 6 saat oturub rejissorun təqdim etdiyi dünyaya baxmağa ağıl, səbr, istək olmalıdır. Bunların üçü bir yerdə deyil. Bu mənada, “düşünmək və görmək” mənasında biz teatral deyilik. Biz kilimarası, qaragöz teatra, əyləncəyə, oyun-məzhəkə janrında olan əyləncələrə meylli xalqıq. Bilmirəm, bunun qüsurudur, nədir, amma bizim peşənin rakursundan baxanda bu normal deyil.

Mədəniyyətin (Teatrın) fərdiliyinin qorunub saxlanması naminə teatrlara dövlət qayğısı, dövlətin teatr fəaliyyətini himayə etməsi, teatrı bir kassa olaraq deyil, bir sənət ocağı kimi yaşatmaq fürsətidir. Nə qədər özünü maliyyələşdirmə bizə də tətbiq edilməyib, sənət naminə çalışmaq fürsəti var - deyə dəyərləndirirəm. Qeyd etdim ki, bizdə çox az sayda intellektual tamaşaçıdan başqa, əksər tamaşaçı nəyə meyllidir. Yoxsa tamaşıçı toplamaq məcburiyyəti bizi sənətdən fərqli məqsədlərə aparacaq.

Mən sizə kiçik bir səyahətimdən danışım. Biz “Cəza” tamaşası ilə böyük bir yol qət etdik. Əvvəlcə Ufaya, sonra Kazana, ordan Fuceyroya (Birləşmiş Ərəb Əmirliyi), ordan Dehli və Kalkutta (Hindistan), daha sonra Tehrana gəldikg Təbii, Rusiya teatrlarında tamaşaçının teatra necə yanaşmasını bilirsiniz. Ən azından yeni teatra meyllənərək, yeni düşüncə tərzinə maraq göstərirlər, baxırlar, müzakirə edirlər. Onlar teatral xalqdır, aydındır. Yeni nəsil bəlkə də elə olmayacaq. Amma sizə bir şey deyim, Tehrandakı teatral tamaşaçını heç bir yanda görməmişəm. 700 nəfərlik zal dolu idi, 500 nəfər də çöldə dayanmışdı, ikinci, üçüncü “seansı” gözləyirdilər. Bax, teatrallıq budur.

Düzdür, “Kod adı V.X.A” adlı tamaşamda “teatral xalq deyilik” sözünün tam əksini gördüm. Niyə? Çünki tamaşa Azərbaycan teatr tarixində ilk dəfə dörd saatlıq tamaşaya gələn tamaşaçı məni yaxşı mənada təəccübləndirdi. Antraktla nəzərə alsaq, tamaşaçı beş saatını teatra həsr edir. Bu adamlara teatral deməmək mümkün deyil. Çünki iki saatdan sonra gedən tamaşaçı da var, bezir, yorulur, tab gətirə bilmir. Amma bu tamaşada “biz teatral deyilik” sözünü geri götürməyə vadar oldum. “Özü də Kod adı V.X A” ağır tamaşadır, əyləncə adında söhbət, dincəlmək yoxdur. Beyin işləyir. Çünki faktların realığı, inkaasıdır. Amma tamaşaçı baxır və əsas da dəyərləndirir.

Eynən, ”Əsrə bərabər gün” də tamaşaçıdan intellektual yanaşma istəyir. Mütləq öyrənmək istəyi, maarifçiliyə meylilik, Aytmatov dahiliyinə cigar tələb edir. Amma sonucda biz əyləncəyə, indi də seriallara daha çox meylli xalqıq. Müasir teatr həyatilik illuziyasından çıxıb, real olanı həyatdan qopardıb, spesfik düşüncəni dağıtmalı... və yenisini yaratmalıdır. Yeni insan baxışını sərgiləməlidir. Bu mənada tamaşaçı hazır olmalıdır.

*(Ardı var)*

**Söhbətləşdi:
Fuad BİLƏSUVARLI**

Başıbəlalı xalqımızın mədəniyyətinə müxtəlif vaxtlarda fəxri adlara layiq görülmüş "korifeylər" qədər zərbə vuran olmayıb. Sovet hakimiyyəti bərqərar olan saatdan xalqımızın yeraltı, yerüstü sərvətləri görünməmiş bir vüsətlə talan edilməyə başladı. Çarizm dövründə onlarla xaçpərəst maqnat var-yoxumuzu soyub aparsa da, hər halda Bakının mərkəzində 20-30 gözəl bina ucaltdılar. Sovet hökuməti hündür tavanlı, içində hər şəraiti olan mənzilləri Azərbaycanda "sosializm quruculuğunda" fəal iştirak etmiş rus və erməni məmurlara verdi. Ən böyük bəla maarifçilik pərdəsi altında aparılan təxribat idi. Azərbaycanlı balası bunu bilməli idi ki, ruslar (ələlxüsus bolşeviklər) bura gələnə qədər onun əbaxu-əcdadı neandertal kimi bir varlıq olub. Dinin nə olduğunu bilmək istəsə, "Dəli Kür" kimi binamus filmə baxsa, bəsdir.



# Həyasızlığın da bir həddi olmalıdır...

## Fəxri adları üzlərinə qalxan kimi tutaraq yenə də, camaatı avam yerinə qoymaq istəyənlər hər yerdən qovulmalıdırlar



**Firuz HAŞIMOV**

Kommunist irticası gənclərin beyinlərini necə zəhərləməyi əla bilirdi. İkinci Dünya müharibəsi ilə bağlı əhvalatlardan danışanda vaxtilə nasistlərin Almaniyada yaratdıqları uşaq və gənclər təşkilatlarından, üzvlərinin fanatikcəsinə, Hitlerə sadiq olmalarından hamı bəhs edir. 1945-ci ildə sovet qoşunları Almaniyaya girəndə son nəfəsinə qədər vuruşan, təslim olmağı fikirləşməyən "Hitleryurend" təşkilatının gəncləri idi. Hamı bilir ki, gestaponun zabitləri neçə il Moskvada sovet təhlükəsizlik sistemində dərs almış, istintaqın səmərəli aparılması sirlərini XDİK-nin müstəntiqlərindən öyrəniblər.

Məşhur ölüm maşınını da sovet mütəxəssisləri fikirləşib yaratmışdılar. Bu, sirr deyil, bunu küllü aləm bilir. Nasistlər alman xalqının elə kilsəsi, elə məbədi yox idi ki, onu göz bəbəyi kimi qorumasınlar. Mən hələ kitabxanalardan danışmıram. Bizim zinadan törənmiş kommunistlərimiz isə məscidləri kolxoz anbarına döndərdilər. Almaniyada kommunist nəşrlər, millətin keçmişinə çirkab atan anarxistlərin kitabları tonqallara atılırdısa, bizdə isə ağına-bozuna baxmayaraq ərəb əlifbası ilə yazılmış kitablar, dahilərin somiə və türbələrdə qərinələr boyu hifz edilmiş əlyazmaları məhv edildi.

Şərq xəttatlığının nadir incilərinin yandırılması barədə əlimdə faktlar var. İndi nizami cəfərovların, flora xəlilzadələrin çəkinib-eləmədən tərifdləkləri "görkəmli" qələm sahiblərinin birinin də cınqırı çıxmadı. Bütün mətbuatı ələk-vələk eləmişəm, "vətənpərvərlərin" çuğulluğu, satqınlığı sayəsində məhv edilmiş qeyrətli şəxslərdən başqa, bir nəfər göz qabağında pamal olan sərvətlərdən danışmır.

İllər keçəcək, camaat yavaş-yavaş yaxşı ilə pisi ayırd edəcək. Bu zaman sovet quruluşundan hər cür qayğını görmüş Rəsul Rzanın oğlu Anar bədbəxt Müşfiqin bostanına daş atmaqdan utanmayacaq. "Müşfiq də Stalindən yazmışdı" sözünü dilə gətirmişdi. Məkrə fikir verirsiniz? Burada iki-üç kəlmə deməsəm, olmayacaq. Rəyasət kreslosundan dördəlli yapışan Anar ağa, zindanda Müşfiqin başına gələnlərdən xəbərimiz var, ailəsinin, əzizlərinin düçar olduqları müsibətdən sakit danışmaq olmaz. O, cavan yaşında iki-üç alçağın (onların kim olduğunu təxmini bilirəm) danosu əsasında qətlə yetirildi, sümükləri sürməyə döndü. Siz isə dünyada məstkam olub, hələ indiyə kimi ortaya babat bir əsər qoymamısınız. Bir müddət işləri sizdən keçənlərin səyi, zəhməti sayəsində o məclisdə, bu yığıncaqda tərifələnib ağac başına çıxarılmısınız. Hamı da bilir ki, mənsub olduğunuz çevrə çoxdan hansı sahələri inhisara alıb. Ellik zəmanətlə bir-birilərinə bağlı olan ağaların "dobrosu" olmadan bir fələkzədə iş görə bilməz.

Bəziləri soruşa bilər, mən niyə belə inadkarlıqla xətalı məsələlərə toxunuram. Sadəcə ona görə ki, illər ərzində millətimi hər cəhətdən şikəst etmiş rus bolşevik irticasına canla-başla qulluq edib, nəinki özü üçün, hətta yeddi arxası üçün gün ağlamış "yazıçıları" reanimasiya masasının üzərinə qaldırırlar.

Dədə Qorqud, Nizami, Babək, Nəsimi, ...bir baxın görün bizim gülməşəkər "korifeylər" kimləri gorbagor ediblər. Dəfələrlə demişəm, psevdotarixi filmlərin hamısı zibilliyə atılmalı, yeniləri çəkilməlidir.

...Televizorda "Qarabağnamə" tamaşasına baxıram və qəzəbimdən əsirəm. Kor-kor, görgördür ki, nə rejissor, nə də rəssam tarixlə heç maraqlanmayıblar. Arxayındırlar, bilirlər ki, bir savadlı sənətşünas, bir tənqidçi özündə cürət tapıb onları rüsvay etməyəcək. Dəlləkliyi klassiklərimizin başında öyrənənlərdən savab əməl gözləmək avamlıqdır. Uzeyir bəyin ölməz "O olmasın, bu olsun" əsərinin başına tənbəki oyunu açanlar hələ o vaxtlar rüsvay edilsəydilər, indi hər yerindən duran Mirzə Cəlilin əsərlərinə istədiyi yozumu verməzdi. "Ölülər" əsərinə televizorda baxmışam. Kim olursa olsun, sözümü deməliyəm. Rejissorun Mirzə Cəlilin yaşadığı dövrü, onun daxili aləmi barədə təsəvvürü olduqca bəsitdir. Mirzə Cəlilin bu əsərlə nə demək istədiyini, rejissor heç başa da düşməyib. Mədəniyyətimiz özünün ikinci intibah dövrünə qədəm qoyub, millət, nəhayət qələbə şərbəti içə bildi, hara baxırsan, ancaq quruculuq işlərini görürsən. Gənclik xalqın MÜZƏFFƏR adına layiq gördüyü Prezidentin bir sözü ilə dağı dağ üstə qoymağa qadirdir. Belə vaxtda fəxri adları üzlərinə qalxan kimi tutaraq yenə də, camaatı avam yerinə qoymaq istəyənlər hər yerdən qovulmalıdırlar. Həyasızlığın da bir həddi olmalıdır.

### Kiçik bir ricət

Hörmətli Prezidentin bütün çıxışlarına diqqətlə qulaq asıram. Var olsun, nə başımızın altına balış qoyur, nə də xalqı arxayın edir. Bizim mütəmadiyən eyş-işrət qurmağa mənəvi haqqımız yoxdur. Az qala hər həftə qətlə yetirilmiş insanların məzarlığı aşkar olunur. Tükürpədici cinayətlərdən sonra da səlib dünyası yenə də giyenasını üzərimizə qısqırdır. Onlar daxilimizdəki əlaltılarına Moskva nökərlərinin illər boyu yaratdıqları şəbəkəyə arxalanmasalar belə qələtləri etməzdilər. Bizim iqtidarın ən böyük, ən bağışlanmaz səhvi ondadır ki, milləti bir bayraq altında birləşdirə bilən mənəvi, ülvi dəyərlərdən danışmağı, hər lotuya, hər naqisə, hər pulgirə etibar edib. İstiqlaliyyətimizin qatı düşməni Qəzənfər Musabəyovun nəvəsi Rasim ağanın tikəsi ələ gəlmir. Axı bu alimnüma nə danışır? İqtidar bunun nəyinə aşiq olub? Eyni sözlər, eyni çeynənmiş ibarələr, mənasız ütülənmiş cümlələr... Bu xarabada başqa adam yoxdur?

Dəfələrlə yazmışam, əzalarını, əsdirməklə, fəxri adlara layiq görülənlərə birdəfəlik olaraq müqəddəs mövzulara yanaşmaq yasaq edilməlidir. Ermənistanda bir pəncərə şüşəsi də qırılmayıb, bir məzar da dağıdılmayıb... Hər şeyi itirən bizik və indi də arxayın-arxayın yeyib içməklə məşğuluq. Millətin keyləşməs, intiqam, qisas barədə düşünməməsi düşmənə əl verir. Doğrudanmı, heç kim başa düşmək istəmir ki, bu müharibə səliblərin hilala qarşı növbəti hücumudur.

Əlləri körpələrimizin, soydaşlarımızın qanına batmış şəhidlərin məzarlarını təhqir etmiş ermənilər heç yerdə, heç vaxt rahat yatmamalıdırlar. Yəhudi xalqının igid övladları 10 illər boyu esesin iri çinli bütün zabitlərini, dünyanın hər bucağında axtarıb qətlə yetirdilər. Biz isə 3-4 cəlladı tutmaqla öyünürük. Bütün dünyaya car çəkirik ki, biz tolerantıq. Yəni bundan sonra kim istəsə üstümüzə gələ bilər, biz heç kimə əl qaldıran deyilik.

Mən isə ondan qorxuram ki, bir müddətdən sonra qandalladığımız canilərin müdafiəsinə bütün xaçpərəst dünyası qalxacaq və biz onları çəm-xəm eləmədən buraxacağıq. Həlak olmuş əsgərlərimizin meyitlərini dərələrə, yarğanlara atdıran Nəcməddin Sadikova güldən ağır söz deyildi? Niyə etiraf etmirik ki, başımıza min oyun açılsa da, biz həmişə rusun üzünə irişmişik. Biz heç vaxt düşmənə axıra qədər nifrət bəsləməyi də bacarmamışıq.

Şiyəzəndə anadan olan, Bakı şəhəri, Sabunçu rayonu, Balaxanı qəsəbəsində yaşayan Əmirov Nadir Hacağa oğlu "Hürriyyət" qəzetinin redaksiyasına müraciət edib. N.Əmirov deyir ki, 2022-ci ilin sentyabr ayında övladı Əmirov Xəyal Nadir oğlu keçmiş kürəkəni Mustafayev Ayaz Oktay oğlu tərəfindən kəsici-deşici alətlə çoxsaylı zərbələrə məruz qaldığı, özü isə döyüldüyü halda, onun şikayəti müvafiq qurumlar tərəfindən obyektiv araşdırılmır:



## "Ayaz yaxın qohumlarına deyib ki, Şəfiqəyə 20 min manat vermişəm..."

# "Hakim deyib ki, onu təhqir etmisən, o da səni vurub da"

## Keçmiş kürəkəni tərəfindən oğlu bıçaqlanan, özü isə döyülən Balaxanı sakini Nadir Əmirov hakim Siyavuş Hacıyevin işə qərəzli yanaşdığını deyir

"Məlumat üçün bildirim ki, 2022-ci il, sentyabrın 2-də qızımın ad günü idi, qonaqlarım gəlmişdi. Həmin vaxt nəvələrim də bizdə idi. Onları maşına yığıb, Balaxanının yenicə təmirdən çıxmış parkına apardım ki, 1-2 saat gəzsinlər, oynasınlar. Özüm də yaxınlıqdakı kafeyə keçdim. Bildirim ki, mən uzun illər avtobus sürücüsü olmuşam. Köhnə iş yoldaşlarım kafedə olduğundan onların yanına getdim ki, biraz vaxt keçsin, uşaqlar 1-2 saat gəzsin, sonra evə aparım".

Şikayətçi deyir ki, təxminən 1-2 saat sonra kafeni tərk edərək maşınına əyləşir. Artıq hava qaralmağa başladığından nəvələrini evə aparmağı düşünür. Bu zaman məlum olur ki, keçmiş kürəkəni Ayaz Mustafayev kənardan onu güdürmüş. O, kafedən ayrılaraq maşına tərəfə gələndə A.Mustafayev və onunla birgə olan tanışı Nadir Əmirova yaxınlaşırlar: "Maşına oturub, xoda salmaq istəyəndə pəncərə döyüldü. Gördüm ki, keçmiş kürəkənimdir. Həmin vaxt artıq 4 il idi ki, o, qızımla rəsmi şəkildə boşanmışdılar. Hazırda 25, 23 yaşlarında oğulları, 17 yaşında qızları var. Boşanma zamanı uşaqlar atalarından imtina etmişdilər, içki düşkünü olduğu üçün...

Maşının qapısını açıb, nə istədiyini soruşdum. Bu zaman o, məni təhqir etməyə, söyməyə başladı. Yalnız onu başa düşdüm ki, "uşaqlar mənim soyadımdan niyə çıxmırlar?" deyə qışqırır. Doğrusu, mən həmin vaxt bu haqda məlumatsız idim. Çünki balaca uşaq deyillər ki, onların həyatına qarışım.

Daha sonra keçmiş kürəkən və yanındakı adını xatırlamadığım şəxs məni döyməyə başladılar. Həmin vaxt Ayazın əlində kəsici alət vardı. Lakin kafedəki sürücülər tökülüşüb gəldilər, məni onların əlindən aldılar. Onu da deyim ki, hadisə kameranın qarşısında baş vermişdi.

Sürücülər bizi ayırandan sonra onlar da çıxıb getdilər. Bu zaman oğlum gəldi, məni görüb dedi ki, nə olub? Dedim ki, heç nə, qurtardı getdi. Lakin kənardan kimsə dedi ki, keçmiş kürəkən və yanındakı şəxs atanı döyüb getdilər. Oğlum bunu eşidən kimi, onunla gələn bacımın kürəkəni ilə birgə maşına oturub getdilər. Mən onları saxlaya bilmədim. Sonra mən də maşına oturub, arxalarınca getdim.

Gedib gördüm ki, altda keçmiş kürəkəndir, üstündə oğlum, onu da arxadan digər şəxs tutub, Ayaz da altdan bıçaqla oğlumu vurur. Yerdə də yalan olmasın, yarım vedrəyə yaxın qan vardı. Bacımın kürəkəni ilə birgə üstdəki adamı kənara atdıq. İstədim bıçağı Ayazın əlindən alım, ayağımı biləyinin üstünə qoydum, bıçağı almağa çalışdım. Amma onun 100 kq çəkisi var, mənim 50-60 kq, gücüm çatmadı. Bu zaman oğlum artıq huşunu itirdi. Onu birtəhər maşına qoyub, Sabunçu Xəstəxanasına gətirdik. Daha sonra DİN-in 102 xidmətinə zəng vurdum.

Xəstəxanada oğlumu əməliyyat etdilər, 10 gün orada yatdı.

Keçmiş kürəkən Balaxanıda kirayədə qalırdı. Amma mən dəqiq hansı ünvanda qaldığını bilmirdim. O da siyəzənlidir, evlənəndən sonra mən gətirmişəm Balaxanıya.

DİN-ə müraciət etdikdən sonra polislər gəldi, onun evini soruşdular. Oğlunun biri dedi ki, mən harda qaldığını bilirəm. Onunla birgə gedib qapını döyürlər, açmır. Sonra oğlu pəncərədən girib, qapını açır, polislər götürüb aparırlar".

Nadir Əmirov deyir ki, həmin hadisədən sonra Sabunçu Rayon Məhkəməsinin hakimi Nigar İmanovanın qərarı ilə Ayaz Mustafayevə cəmi 4 ay iş verilir: "Ona 4 ay iş verib, Kürdəxanıya göndərdilər. İkinci adamın ümumiyyətlə adı yox idi. 4 ay sonra, 31 dekabrda buraxdılar. Elə həmin gün də bizim üstümüzə gəldi. Qızım baxçada müəllimə işləyir, işə gedəndə qabağını kəsib, söyüb, təhqir edib. Polis nəzarəti altında idi, 2 dəfə 102-yə müraciət etdik, gəlib apardılar, dərhal da azad etdilər. 3-cü dəfə içkili vəziyyətdə həyətimizə girdi. Mən yenə DİN-in 102 xidmətinə müraciət etdim. Amma bu dəfə heç kim gəlmədi. Axırda, onu birtəhər bayıra çıxardım, itələdim ki, get evinə. İçkili olduğundan 10 metr aralıda gül əkilən yerə düşdü, qaldı orda.

Mən içəri girəndən sonra təcili yardım çağırıb. Ardınca da gedib polisə şikayət edib ki, guya, mən onu maşınla vurmuşam, ayağının üstündən keçmişəm və s. Özü də gəlib deyib ki, guya, həmin yerdə maşınla vurmuşam. Ərazidə şəkil də çəkiblər və mənim evim də düşüb. Müstəntiqə deyirəm ki, birincisi, mən onu vurmamışam, ikincisi, bunun burda nə işi vardı axı?! Axırda gedib Sabunçu prokurorunun müavini ilə görüşdüm. Dedim, vuran burda, vurulan burda, məni nə üçün aparıb-gətirirsiniz?

Sonra işi başqa müstəntiqə verdilər. 6 ay da yeni müstəntiq işi uzatdı, nəhayət, sənədləri Ağır Cinayətlər Məhkəməsinə təqdim etdilər. Amma məhkəmə məni zərərçəkən kimi deyil, şahid kimi tanıdı. Proses oldu, hakim dedi ki, 1 həftəyə sizi yenidən çağıracağıq. Həmin vaxt dedim ki, bu adamı bayıra buraxmayın, üstümüzə gəlir. Görünür, ona nə isə deyilmişdi, 6 ay üzünü görmədik.

Vəkili Şəfiqə Nağıyeva bir neçə dəfə mənə dedi ki, ağsaqqal, bağışlamaq lazımdır. Şəkilləri göstərib dedim ki, sənin oğlunu bu günə salsalar, sən bağışlayarsan? Deyir ki, onsuz da sən bağışlasan da 3 il, əks halda 5 il iş verəcəklər".



Şikayətçi deyir ki, 6 aylıq fasilədən sonra aprelin 17-də hakim Siyavuş Hacıyevin sədrliyi ilə Ağır Cinayətlər Məhkəməsində növbəti proses baş tutub. "Ayın 17-də, saat 5-də getdik. Bizdən əvvəl başqa 2 iş vardı. Onlar bitdi, təxminən yarım saat sonra bizim iş başladı. Məni hakim yenə zərərçəkən kimi tanımadı, bayıra çıxardı. Etiraz etdim ki, mən şahid deyiləm, zərərçəkənəm, məni niyə çıxarırsınız, baxan olmadı...

Heç 10 dəqiqə çəkmədi, iclas bitdi. Məlum oldu ki, növbəti məhkəmə prosesi mayın 17-nə təxirə düşüb".

Nadir Əmirov iddia edir ki, hakim Siyavuş Hacıyev hadisəyə qeyri-obyektiv yanaşır: "Məhkəmədə oğlum yenidən ifadə verib. Hakim deyib ki, sən onu təhqir etmisən, o da səni vurub da.

İndi bilmirəm ki, kimə müraciət edim?! Hesab edirəm ki, hakim qərəzli mövqe tutur. İkinci adamı ümumiyyətlə çağırmadı. Daha doğrusu, guya çağırdı, o da dedi ki, Biləcəridəyəm, tıxacdır, gələ bilmirəm.

Qarşı tərəf vurduğunu danmır, deyir ki, vurmuşam. Sadəcə ikinci adamı aradan çıxarmaq istəyir. Halbuki, onlar məni də döyüblər, çox sayda şahid var, hadisə də kameranın altında olub. Məhkəmə imkan vermir ki, biz danışaq.

Mən müstəntiqə bu haqda ifadə verdim. Amma ifadəmin çapla yazılmış variantında fərqlər çoxdur, mənim sözlərim dəyişdirilib. Mən də oxumadan imza atmışam".

Şikayətçi iddia edir ki, vəkil Şəfiqə Nağıyeva keçmiş kürəkənini pul gücünə azadlıqda saxlamağa çalışır: "Ayaz yaxın qohumlarına deyib ki, Şəfiqəyə 20 min manat vermişəm. Mən bunu müstəntiqə də dedim. Müstəntiq soruşdu ki, hansı Şəfiqə? Dedim tez-tez televiziyaya çıxır... Lakin müstəntiq onun haqqında heç də yaxşı söz demədi...".

N.Əmirov deyir ki, Ayaz Mustafayevin yanındakı adamı ortadan çıxarmaqda məqsəd onun pulunu almaq olub: "İkinci adamın obyektləri var, maddi imkanı çoxdur. Mən elə bilirəm ki, Ayaza o da kömək edib. Onun deputatlardan biri ilə yaxın olduğu da deyilir".

**Hazırladı: İ.SABİRQIZI**

***Redaksiyadan: Qarşı tərədin mövqeyini dərc etməyə hazırıq.***

# "Prezidentin Almaniya səfəri bir

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi



Məhəmməd Əsədullazadə: "ABŞ Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasında qarant ölkə olmağa çalışır"



Elxan Şahinoğlu: "Ermənistanla sərhədin müəyyənləşdirilməsinin sonrakı mərhələlərində mübahisələr yarana bilər"



Asif Nərimanlı: "İlham Əliyev Almaniyaya azad olunmuş ərazilərdən getməklə buranın artıq "təhlükəsiz bölgə" olduğunu nümayiş etdirdi"

**Bugünlərdə Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfər edib. Qeyd edək ki, səfər çərçivəsində ölkə başçısının Almaniya kansleri Olaf Şolts ilə təkbətək görüşü baş tutub. Aprelin 26-da isə liderlər birgə mətbuat konfransı keçirib. Bu zaman İlham Əliyev "Biz Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını yüksək qiymətləndiririk", deyə bildirib. O, həmçinin Olaf Şoltsun dəvəti ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin bu yaxınlarda Almaniyada görüşdüklərini xatırladaraq, növbəti görüşün Qazaxıstanda planlaşdırıldığını da vurğulayıb: "Beləliklə, sülh sazişinin imzalanmasına doğru biz əlavə addımlar atırıq".**

Almaniya kansleri isə öz növbəsində, münaqişənin ancaq sülh yolu ilə həll olunmalı olduğuna diqqət çəkib: "Son görüşdə hər ikiniz məni açıq olan sualların sülh yolu ilə həllini tapacağına əmin etdiniz. Almaniya hər iki ölkəni lazımi kompromislər üçün dəstəkləməyə hazırdır. Demarkasiya ilə bağlı ilkin razılıq bizi sevindirir. Bu istiqamətdə cəsarətli addımı təşviq edirəm". Olaf Şolts əlavə edib ki, ölkəsi Azərbaycan və Ermənistana sülh yolunda dəstək göstərməyə hazırdır.

Bu arada, onu da nəzərinizə çatdıraq ki, aprelin 28-də isə ABŞ dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin yaydığını məlumatda deyilir ki, Entoni Blinken ilk növbədə Ermənistan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə olunmuş razılaşma ilə bağlı təbriklərini çatdırıb, bunun ABŞ tərəfindən təqdir edildiyini vurğulayıb. Dövlət katibi ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəli aparılması üçün bundan sonra da dəstək göstərməyə hazır olduğunu qeyd edib. Dövlətimizin başçısı isə iki ölkənin delimitasiya komissiyası tərəfindən əldə olunmuş razılaşmanın ikitərəfli əsasda aparılmış dialoq və qarşılıqlı anlaşma şəraitində keçirilmiş müzakirələrin nəticəsi olduğunu bildirib. Prezident İlham Əliyev delimitasiya prosesinin ardınca iki ölkənin sərhədində artıq demarkasiya işlərinin başlanmasının da müsbət bir addım olduğunu vurğulayıb. Ölkə başçısı sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi üçün Qazaxıstan tərəfinin təklifinə uyğun olaraq tezliklə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatıda görüşəcəklərini qeyd edib. Bununla yanaşı, sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarının Azərbaycan Respublikası olduğunu xatırladan Prezident İlham Əliyev ölkəmizin sülh gündəliyinin bundan sonra da davam etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bəyan edib və Azərbaycanın bu xüsusda qəti siyasi iradəyə malik olduğunu bildirib. Ölkə başçısı əlavə edib ki, Azərbaycan regionda hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasını dəstəkləyir.

Dövlət katibi Entoni Blinken isə ABŞ ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin gücləndirilməsi üçün ölkəsinin niyyətini ifadə edərək enerji, iqlim, nəqliyyat, COP29 sahələrində əməkdaşlıq məsələlərini qeyd edib. Dövlətimizin başçısı da öz növbəsində, Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğulayıb. Telefon söhbəti zamanı COP29 çərçivəsində Azərbaycan və ABŞ nümayəndə heyətləri arasında əməkdaşlıqdan məmnunluq ifadə olunub. Entoni Blinken son zamanlarda Azərbaycanda insan haqları ilə bağlı atılmış addımları müsbət qiymətləndirərək, bunun davamlı olması ilə əlaqədar arzusunu ifadə edib. Prezident İlham Əliyev Azərbaycanın insan hüquqları sahəsində öhdəliklərinə sadiq olduğunu və ölkəmizdə demokratik islahatların davam etdirildiyini diqqətə çatdırıb.

> Dövlət katibi Entoni Blinken isə ABŞ ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin gücləndirilməsi üçün ölkəsinin niyyətini ifadə edərək enerji, iqlim, nəqliyyat, COP29 sahələrində əməkdaşlıq məsələlərini qeyd edib. Dövlətimizin başçısı da öz növbəsində, Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğulayıb. Telefon söhbəti zamanı COP29 çərçivəsində Azərbaycan və ABŞ nümayəndə heyətləri arasında əməkdaşlıqdan məmnunluq ifadə olunub.

### "Zəngəzur dəhlizi açılacaq və Ermənistanın nəzarətində olacaq"

Beləliklə, mövzu ilə bağlı mövqeyini "Hürriyyət"lə bölüşən Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə qeyd edib ki, Azərbaycan Ermənistanın ərazi bütövlüyü və suverenliyini 1991-ci il Almatı bəyannaməsi əsasında tanıyır və artıq bununla bağlı razılaşma da əldə olunub: "Ermənistan da bunu istəyirdi və artıq ikitərəfli razılaşmaya uyğun olaraq dörd kənd Azərbaycana verilib. Azərbaycanın Ermənistanın Zəngəzur bölgəsinə heç bir ərazi iddiası yoxdur. Baxmayaraq ki, Zəngəzur bölgəsi tarixi Azərbaycan ərazilərdir və 1929-cu ildə Azərbaycan SSRİ-dən alınıb Ermənistan SSRİ-yə verilib. Bununla da Fransa və bəzi dövlətlərin "Azərbaycan Ermənistanın ərazisini işğal edəcək, hərbi təhdidlər var" kimi əsassız açıqlamalarına son qoyuldu. Çünki Almatı bəyannaməsi razılaşdırılıb. Əslində, Qərb də bunu istəyirdi".

Zəngəzur dəhlizi ilə bağlı məsələyə gəldikdə isə Milli Cəbhə Partiyasının sədr müavini hesab edir ki, sözügedən yol açılacaq və Ermənistanın nəzarətində olacaq: "Azərbaycanın bu yoldan imtiyazlı şəkildə istifadə etməsi üçün ikitərəfli danışıqlar aparılmasına ehtiyac var".

### "Azərbaycan tərəfi qarant ölkə ABŞ və yaxud digər ölkə olacaqsa, Türkiyənin də prosesdə iştirakı təklifini irəli sürür"

Məhəmməd Əsədullazadə onu da əlavə edib ki, ABŞ Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasında qarant ölkə olmağa çalışır: "Qeyd edim ki, bu məsələdə Fransanın qarşısını məhz Azərbaycan alıb. Heç kimə sirr deyil ki, Ermənistan tərəfi sülh müqaviləsində qarant ölkə kimi Fransanın olmasını istəyirdi. Azərbaycan tərəfi isə Ermənistanla sülh müqaviləsində qarant ölkə təklifini qəbul etmir. Çünki bu, regional müstəvidə yeni problemlərə yol aça bilər. Sülh müqaviləsinin bağlanması üçün ən optimal məkan isə Qazaxıstandır. Azərbaycan tərəfi qarant ölkə ABŞ və yaxud digər ölkə olacaqsa, Türkiyənin də prosesdə iştirakı təklifini irəli sürür. Odur ki, hələlik bu məsələdə tərəflər arasında fikir ayrılıqları var".

### "Paşinyan taktikasından imtina etməsə, daxili və xarici düşmənləri birləşib çevriliş həyata keçirməyə çalışacaqlar"

Ermənistanın Azərbaycanla sərhədində yerləşən Tavuş vilayətində keçirilən etiraz aksiyasına toxunan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bu qənaətdədir ki, bir qrup hərbçinin aksiyaya qoşulması hökumətə qarşı qiyamın əlaməti sayıla bilər: "Ermənistan Müdafiə Nazirliyi həmin hərbçilərin kimliyini müəyyənləşdirməyə çalışır. Baş nazir Nikol Paşinyan tələsməlidir. Əgər həmin hərbçilər özbaşınalıqlarına görə cəzalandırılmasalar, başqa hərbçilər də etiraza qoşulacaqlar. Nikol Paşinyanın taktikası bundan ibarətdir ki, etirazçılar qışqırıb-bağırdıqdan sonra dağılacaqlar. İkinci Qarabağ müharibəsindən sonra da belə olmuşdu. Radikallar İrəvan küçələrində aylarla qışqırdılar, bağırdılar, yürüşlər təşkil etdilər, yolları bağladılar, ancaq etirazçıların sayı artmadığına görə proses səngidi və Paşinyan yoluna davam etdi. Nikol Paşinyan yenə eyni taktikaya üstünlük verir, ancaq bu dəfə məsələ qəlizləşə bilər. 2020-ci ilin aksiyalarında hərbçilər və polislər etirazçılara qoşulmamışdılar, əksinə radikallarla mübarizə aparırdılar. Bu dəfə isə hərbçilərdən qopmalar baş verib, bu polisə də sirayət edə bilər. Ona görə də Paşinyan taktikasından imtina etməli, Tavuşdakı etirazları yatırtmağa çalışmalıdır, əks halda onun daxili və xarici düşmənləri birləşib çevriliş həyata keçirməyə çalışacaqlar".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# çox məqamları ilə tarixə düşdü"

## "Bakı sülh müqaviləsində qarant ölkə təklifini qəbul etmir, çünki bu, yeni problemlərə yol aça bilər"



Xəyal Bəşirov:
"Biz Almaniya üçün təkcə ənənəvi enerji resursları, alternativ və bərpa olunan enerji, habelə yaşıl enerji əhəmiyyəti daşımırıq, eyni zamanda böyük iqtisadi, enerji və loqistika layihələrinin kəsişdiyi qitələrarası yolun üzərində yerləşən dövlət rolunu oynayırıq"

**"Azərbaycan üçün Ermənistana həmsərhəd olan Qazax, Tovuz və Gədəbəyin təhlükəsizliyi Qarabağın təhlükəsizliyi qədər vacibdir"**

Elxan Şahinoğlunun sözlərinə görə, Ermənistan 4 kəndi Azərbaycana qaytardıqdan sonra yerdə qalan 4 kəndin nə zaman qaytarılacağı mövzusu aktuallaşıb: "Bu arada, ermənilərin iddia etdiyi Başkənd mövzusu ətrafında da müzakirələr başlayıb. Delimitasiya və demarkasiya prosesi davam edir. İlkin nəticələr müsbətdir. Ancaq sərhədin müəyyənləşdirilməsinin sonrakı mərhələlərində mübahisələr yarana bilər. Əslində bunda problem yoxdur, onsuz da qısa müddətdə iki ölkə arasında sərhədin tamamının müəyyənləşdirilməsi mümkün olmayacaq. Bizim üçün önəmli olan Qazaxa bitişik 4 kənd idi, onu həll etdik, digər 4 kəndlə bağlı danışıqlar davam edəcək. Sülh və ya çərçivə sazişinə bütün problemli məsələləri daxil etmək mümkün olmayacaq. Ermənistana həmsərhəd olan Qazax, Tovuz və Gədəbəyin təhlükəsizliyi Qarabağın təhlükəsizliyi qədər Azərbaycan üçün vacibdir".

**"Ölkə başçısı Azərbaycanın torpaqlarını azad etdiyinin, suverenliyinin bərpa olunduğunun mesajını Avropaya çatdırdı"**

Ölkə başçısının Almaniyaya səfəri ilə bağlı fikirlərini bölüşən siyasi şərhçi Asif Nərimanlı isə hesab edir ki, səfərinin Füzuli-Berlin marşrutu üzrə başlanması, azad olunmuş ərazilərdən qlobal siyasətə ilk çıxış təkcə bu unudulmaz anı tarix səhifəsinə yazmaq məqsədi daşımır, həm də siyasi hesablamanın tərkib hissəsidir: "İstisa deyil ki, məsələ heç də Əliyevin Japarovla birlikdə Qarabağda olduğu üçün zaman trafikindən qaynaqlanmayıb. Füzulidən Berlinə uçan Prezidentin portfelində Azərbaycana dividentlər gətirəcək məsələlər olub. Əliyev Berlinə Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün gedib və COP29-a ev sahibliyi edəcək ölkənin rəhbəri kimi orada təmsil olunub. Berlin dialoqunda müzakirələr Bakıda baş tutacaq COP29 üçün istiqamətləri müəyyən edib. Və hazırda qlobal iqlim problemlərində iki istiqamət prioritetdir: 1. İqlim problemlərinin qarşısının alınması "yaşıl enerjiyə" keçidlə mümkündür; 2. İnvestorların "yaşıl enerji"yə kapital yatırması əhəmiyyətlidir və buna təşviq edilməlidirlər".

Asif Nərimanlı bildirib ki, Prezident İlham Əliyev də Berlin gündəliyini bu prioritetlər üzərindən müəyyənləşdirib: "Əliyev Berlinə azad olunmuş ərazilərdən gedərək, buranın artıq "təhlükəsiz bölgə" olduğunu nümayiş etdirdi. Bu, investorlar üçün vacib amildir. Bakının hədəfi azad olunmuş əraziləri "yaşıl enerji zonasına" çevirməkdir və Əliyevin portfelində də məhz investorları bu bölgəyə cəlb etmək olub. Ən mühüm amillərdən biri Azərbaycanın torpaqlarını azad etdiyinin, suverenliyinin bərpa olunduğunun mesajı praktiki olaraq Avropaya çatdırıldı. Bu, xüsusilə Fransa başda olmaqla, suverenliyimizin bərpasını qəbul etməyən, hələ də regiondakı reallığı dəyişdirə biləcəklərinə ümid edən qüvvələrə ünvanlanıb".

**"Cənubi Qafqazla bağlı heç vaxt sabit ədalətli mövqe tutmayan ABŞ-la da son dövrlərdə Yaxın Şərq, Uzaq Şərq və hətta Şərqi Avropa mövzularında əhəmiyyətli fikir ayrılıqlarında olduğunu da nəzərə alsaq, Almaniyanın Cənubi Qafqaz mövzusuna elə ilk növbədə öz maraqlarına görə səmimi yanaşmaq məcburiyyətində olduğunu demək olar"**



"Siyasi və Hüquqi Araşdırmalar Mərkəzi"nin (SHAM) sədri Xəyal Bəşirov isə qeyd edib ki, Prezident İlham Əliyevin Almaniya səfəri bir çox məqamları ilə tarixə düşmüş oldu: "İlk baxışdan ölkə başçısının xarici ölkələrdən birinə rəsmi səfər etməsi normal səslənə bilər. Məhz ona görə idi ki, Prezidentin köməkçisi Hikmət Hacıyev proseslərin içində olan şəxs kimi bu səfəri "Unudulmaz və tarixi uçuş" adlandırdı!

"Siyasi və Hüquqi Araşdırmalar Mərkəzi"nin (SHAM) sədri Xəyal Bəşirov isə qeyd edib ki, Prezident İlham Əliyevin Almaniya səfəri bir çox məqamları ilə tarixə düşmüş oldu: "İlk baxışdan ölkə başçısının xarici ölkələrdən birinə rəsmi səfər etməsi normal səslənə bilər. Ancaq Azərbaycan Prezidentinin bu səfəri bir çox məqamları ilə tarixə düşmüş oldu. Məhz ona görə idi ki, Prezidentin köməkçisi Hikmət Hacıyev proseslərin içində olan şəxs kimi bu səfəri "Unudulmaz və tarixi uçuş" adlandırdı! Bəs nə idi bu səfəri özəl və tarixi edən? İlk öncə bu səfərin özəlliyi işğaldan yenicə azad etdiyimiz Füzulidən, Qarabağın hava qapısı olan Füzuli hava limanından birbaşa Avropanın mərkəzi Almaniyayanın paytaxtı Berlinə edilməsi ilə bağlı idi. Füzulidən Berlinə istiqamətləndiyi üçün Hikmət müəllim bu uçuşu unudulmaz və tarixi, səfəri isə möcüzəvi adlandırır! Növbəti məqam isə səfərin məhz Almaniyaya edilməsi ilə əlaqədar idi. O Almaniyaya ki, ora artıq ötən və bu il ərzində Prezident 3-cü dəfə səfər edir. Eyni zamanda da suverenliyimizin və bütövlüyümüzün tam təmin olunmasından sonra qalib Azərbaycan üçün yeni dövrün başlanğıcında keçirilən ilk Prezident seçkilərində qələbə çalan dövlət başçısı kimi ilk xarici səfərini bu ilin fevralında etdiyi Almaniyaya. Həm də həmin Almaniya ki, bu yaxınlarda Avropa İttifaqının istehsal maşını və iqtisadi avanqardı olan bu ölkənin İqtisadiyyatının Şərq Komitəsinin rəhbəri böyük bir nümayəndə heyəti ilə Bakıya səfər etdi və Prezident İlham Əliyevin qəbulunda oldu".

Xəyal Bəşirovun fikrincə, ən həlledici məqamlardan biri də Almaniyanın son zamanlar Cənubi Qafqazla bağlı reallıqlara elə real yanaşması ilə bağlıdır: "Böyük Britaniyadan sonra Avropa İttifaqı daxilində onunla liderlik uğrunda uğursuz rəqabət aparmağa cəhd edən ədalətsiz, qərəzli və ermənipərəst Fransanı Azərbaycan Ermənistan münasibətlərinin normallaşdırılması və sülh prosesində uğurla əvəz etməyə çalışır Almaniya. Rusiya Ukrayna müharibəsinin ən böyük iqtisadi və enerji zərbəsini alan dövlət olduğunu və Azərbaycan-Avropa İttifaqı enerji əlaqələrinin inkişaf tempini nəzərə alsaq, Almaniyanın bu siyasətini anlamaq çətin deyil. Cənubi Qafqazla bağlı heç vaxt sabit ədalətli mövqe tutmayan ABŞ-la da son dövrlərdə Yaxın Şərq, Uzaq Şərq və hətta Şərqi Avropa mövzularında əhəmiyyətli fikir ayrılıqlarında olduğunu da nəzərə alsaq, Almaniyanın Cənubi Qafqaz mövzusuna elə ilk növbədə öz maraqlarına görə səmimi yanaşmaq məcburiyyətində olduğunu demək olar. Biz Almaniya kimi dövlət üçün təkcə ənənəvi enerji resursları, alternativ və bərpa olunan enerji, habelə yaşıl enerji əhəmiyyəti daşımırıq, eyni zamanda böyük iqtisadi, enerji və loqistika layihələrinin kəsişdiyi qitələrarası yolun üzərində yerləşən dövlət rolunu oynayırıq. İkinci Dünya müharibəsində Almaniyanın hədəfə aldığı Bakının əhəmiyyəti o zamankından dəfələrlə artıb, sadəcə indiki şərtlər gücü deyil əməkdaşlığı diktə edir ki, iki ölkə arasında bu əməkdaşlıq üçün kifayət qədər iradə və istək də mövcuddur. Münasibətlərimizin və əməkdaşlığımızın Almaniya üçün də önəminin yüksək olduğunu Prezident İlham Əliyevin ölkənin Kansleri Olaf Şoltsun xarici işlər naziri Annalena Berbokla birlikdə qarşılamasında özünü açıq göstərmiş oldu. Bundan savayı Prezidentin ayrı-ayrılıqda Almaniya Prezidenti, Kansleri və xarici işlər naziri ilə məhsuldar görüşlər keçirməsi qarşı tərəfin səfərə həssas yanaşmasından xəbər verirdi. Təbii ki, Prezident İlham Əliyevin ənənəsinə sadiq qalaraq bütün platformalarda olduğu kimi Avropanın mərkəzində də həm postmünaqişə dövrünə və sülh gündəliyinə aid, həm daxili və xarici siyasətimizə dair və həm də Avropa coğrafiyası ilə bağlı gündəmimizlə əlaqədar növbəti dəfə ölkəmizin mövqeyini açıq şəkildə bəyan etməsi beynəlxalq ictimaiyyət üçün ciddi mesajlarla yadda qaldı!"

**Vazeh BƏHRAMOĞLU**

# “Onlar məhkəmədən də güclüdürlər”

## Dövlətin külli miqdarda vəsaitini talamaqda ittiham olunan Fərəməz Məmmədovun keçmiş dostu Yusif Əliyevdən şok açıqlamlar

“Hürriyyət” qəzetinin 16 aprel, 2024-cü il sayında “Dövlət büdcəsini talan edən qardaşlar azadlıqda...” sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda “Alatava-2 Avtonəqliyyat” Səhmdar Cəmiyyətinin qeyri-rəsmi sahibləri - Fərəməz Məmmədov və Qalib Məmmədov qardaşlarının dövlətin milyonlarla manat vəsaitini talan etməsi ilə bağlı məlumat verilirdi. Qeyd olunurdu ki, bu haqda çoxsaylı faktlar aşkarlansa da, qardaşlar onları himayə edən məmurların hesabına hələ də “toxunulmaz” qalıblar.

Məsələ ilə bağlı “Hürriyyət”ə müraciət edən Bakı sakini Əliyev Yusif Lətif oğlu da Fərəməz Məmmədov və Qalib Məmmədovun qanunsuz əməllərindən bəhs edib. O deyir ki, Məmmədov Fərəməz Nurulla oğlu ilə keçmişdə dost olublar: “1986-cı ildə Zaqataladan Bakıya köçəndən sonra, onunla birgə iş görmüşük. Sonra, 1998-ci ildə mən özüm üçün Babək prospektində 70 min dollara 2 hektar yer almaq istəyirdim. Fərəməz dedi ki, oranı alma, mənim qardaşımın Tariyel adlı tanışı var, yaxşı yer satır, gedək oranı alaq. Bildirdi ki, həmin yer şəhərin mərkəzində “daş bazarı” kimi fəaliyyət göstərir. Getdik, o, bizi Tariyel müəllimlə tanış etdi, onunla danışıb razılaşdıq.

Məlumat üçün deyim ki, həmin yer onun icarəsində idi. O



Şikayətçi deyir ki, hazırda bazar qiyməti ən azı 20 milyon manat edən “daş bazarı”nın 35 faizi onun haqqıdır

vaxt qərar vardı ki, kim hansı ərazini icarəyə götürübsə, oranı özəlləşdirə bilər. Tariyel müəllimin də həmin yeri özəlləşdirməyə maddi imkanı yox idi, ona görə şərikli işləməyə razılıq vermişdi.

Beləliklə, razılaşmaya əsasən, özəlləşdirmə olmalıydı, həmin yerin 30 faizi Tariyel müəllimə verilməli, qalan 70 faiz də Fərəməzlə mənim armada tən yarı (hərəyə 35 faiz) bölünməli idi.

Həmin günün səhərisi 70 min dollar mən, 60 min dollar da Fərəməz qoydu, yerin özəlləşdirilməsi üçün aparıb həmin pulu keçmiş nazir Barat Nuriyevin Mübariz adlı köməkçisinə verdik. 30 min manat da borcumuz qaldı. Sonra iş gördükcə həmin vəsaiti də hissə-hissə ödədik”.

Yusif Əliyev deyir ki, özəlləşmə prosesi yubansa da, bir müddət birgə işləyiblər: “Mən orda mağazalar, avtomobil təmiri sexləri tikdirdim. Onlar həmişə mənə deyirdilər ki, biz 5 qardaşıq, sən bizim altıncı qardaşımızsan. Sonra Fərəməz və qardaşı üzümə durdu ki, sən bura şərik deyilsən. Onlar Tariyel müəllimin də, mənim də haqqımı dandılar. Mən yatsam yuxuma da girməzdi ki, onlar belə şey edə bilərlər. Deyəndə ki, sən bu yerə ortaq deyilsən, cavab verdim ki, deyəsən siz çaşmısınızg

Həmin vaxt onların barəsində cinayət işi açılmışdı, külli miqdarda dövlət əmlakını talan etmək ittihamı ilə axtarışda idilər. Bu zaman Fərəməz kağız üzərində həyat yoldaşından ayrıldı ki, sabah bir şey olsa əmlaklarına həbs qoyulmasın. Bütün əmlakları da kağız üzərində ayrıldığı arvadının adına keçirdi(Bütün bunlarla bağlı ötən yazımızda məlumat vermişik - müəl.).

Mən bunlara qarşı mübarizə aparandan sonra Fərəməz ortalığa çıxmadı, aranı qardaşı qatırdı. Onun həmin vaxt da çox böyük maddi imkanı vardı”.

Şikayətçi deyir ki, bu hadisələrdən sonra, 2000-ci ildə ortaqlığı bitirmək qərarına gəlib: “Fərəməzə dedim ki, ayıb olsun sənə, mən gedirəm, payıma düşəni verin. O dedi ki, yox, sən gedə bilməzsən, biz qardaşıq. Dedim yox, siz qardaşlığı keçdiniz, qardaş belə hərəkət etməz.

Bundan sonra Qalib gəlib dedi ki, bizim sənə borcumuz yoxdur, amma 70 min dollar verdiyin üçün, hörmət edib sənə 70 min manat qaytararıq. Bunun da 50 min manatını veririk, qalan 20 mini də sənin “yaxşı oğlan” kimi təqdim etdiyin şəxs bizə 20 min manat “atdığına” görə, onunla əvəzləyirik.

Hansı ki, həmin adamla 5 il işləmişdilər. 5 ildən sonra deyir ki, o, bizə 20 min manat atıb, həmin 20 mini də mənə verəcəkləri puldan çıxdılar. O pulu da Qalibin bacanağı gətirib verdi ki, götür, sən onsuz da onlara heç nə edə bilməyəcəksən”.

Y.Əliyev deyir ki, həmin vaxt sənədə imza atıb 50 min manat götürsə də, hazırda həmin yerin 35 faizinə iddialıdır. Onun sözlərinə görə, 1998-ci ildəm həmin yerin özəlləşdirilməsini gözləsələr də, cəmi 6 ay öncədən “daş bazarı”nı özəlləşdirməyə başlayıblar: “Amma indiyədək həmin yer istifadə olunub, müəyyən şəxslərə icarəyə verilib. Hazırda da bu ərazidə tikinti materialları satılır. Bir hissəsi isə dayanacaq kimi istifadə olunur. Amma bu müddət ərzində gəlirdən mənə bir qəpik də pul verməyiblər”.

Şikayətçinin sözlərinə görə, həmin ərazi təxminən 4 hektardır və indiki bazar qiyməti ilə 20 milyon manata yaxın pul edir və bu vəsaitin 35 faizi onun haqqıdır: “Onları məhkəməyə vermədim. Bilirdim ki, bütün hallarda qərar onların xeyrinə çıxarılacaq. Onların geniş imkanları var, məhkəmədən də güclüdürlər”.

*(Ardı var)*

**Hazırladı: KƏNAN**

***P.S. Növbəti məqalələrimizdə Fərəməz Məmmədov və qardaşı Qalib Məmmədovun dövlət əmlakını necə talamaları, hansı məmurlar tərəfindən himayə olunmaları, eləcə də öz himayədarları hesabına daha hansı şəxslərin külli miqdarda pulunu və əmlakını ələ keçirmələri haqda geniş yazacağıq.***

***P.P.S. Qarşı tərəfin mövqeyini də dərc etməyə***

# İşdən çıxarılan icra başçısının müavini məhkəməyə üz tutdu

**Naxçıvan Muxtar Respublikası (MR) Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının keçmiş müavini Səfər Əhmədov işdən çıxaırlması ilə bağlı məhkəməyə müraciət edib.**

Hurriyyet.az xəbər verir ki, Naxçıvan Şəhər Məhkəməsi onun iddiasını təmin etməyib. Səfər Əhmədov apellyasiya şikayəti verib. Keçmiş müavinin şikayətinə Naxçıvan MR Ali Məhkəməsində baxılacaq. Yusifəli Qurbanov iş üzrə hakim təyin edilib.

Məlumat üçün deyək ki, Naxçıvan MR Ali Məhkəməsi apellyasiya instansiyası kimi fəlaiyyət göstərir.

Bəzi məlumatlara görə, Səfər Əhmədovun iddia tələbi işə bərpa olunması ilə bağlıdır.



Səfər Əhmədov ötən ilin avqustunda işdən çıxarılıb. O, icra başçısının müavini olmaqla yanaşı Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifəsini daşıyıb.

Xatırladaq ki, bundan əvvəl Naxçıvan Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov qurumu məhkəməyə verib.

# “Bu, İran rejiminin ölkəmizə açdığı “narkotik savaşı”nın tərkib hissəsidir”

Son zamanlar din adamlarının, axundların narkotik ticarəti ilə əlaqədar həbs olunması cəmiyyətdə ciddi müzakirə mövzusuna çevrilib. Söhbət ondan gedir ki, insanlara əxlaqi-mənəvi dəyərləri aşılamalı, onları zərərli vərdişlərdən uzaq durmağa çağırmalı olan din adamları, bunun əksinə, yeniyetmə və gənclərimizi narkotiklə zəhərləyirlər. Həm də o şəxslər ki, zaman-zaman Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təltif olunub, barələrində təşəkkürnamə elan edilib. Maraqlıdır, dindarların narkotik ticarətinə meyl etməsi nə ilə bağlıdır? Əməkdaşımız bu və digər suallara Filologiya elmləri doktoru, BDU-nun professoru, "Jurnalistikanın inkişafına yardım" fondunun sədri, "Əməkdar jurnalist" Qulu Məhərrəmli ilə söhbətində cavab tapmağa çalışıb.

## Qulu Məhərrəmli: “İrandakı narkotik şəbəkəsinə bağlı adamlar ikiqat təhlükəlidir...”



## “Biz gənc nəsli, narkotikə meylli insanlarımızı fəlakətdən xilas etmək üçün ciddi addımlar atmalıyıq”

***- Qulu müəllim, Azərbaycanda din adamlarının narkotik ticarəti ilə bağlı həbs olunduğu haqda çoxsaylı faktlar var. İslam insanları zərərli vərdişlərdən uzaqlaşmağa çağırdığı halda, bəzi dindarların narkotik ticarətinə meyl etməsi nəyin göstəricisidir?***

- Biz burda öncə anlayışları dəqiqləşdirməliyik. “Din adamı” kimə deyirik, “dindar” kimdir, “din xadimi” kimdir?! Sərhədləri dəqiq bilmək lazımdır. Ola bilər, kimsə özünü dindar göstərir. Amma ondan pərdə kimi istifadə edir, narkotik ticarəti və digər cinayət tərkibli işlərlə məşğul olur. Yəni bunu din xadimlərinin adına yazmaq ki, bunların arasında narkotik ticarəti ilə məşğul olan var, mənim düşüncəmə görə, ifadələrlə xeyli ehtiyatlı olmaq lazımdır. Ola bilər, kimsə həqiqətən haranısa təmsil edir və o, narkotik ticarəti ilə məşğul olur. Hesab edirəm ki, ona qanunun tələb etiyi ölçüdə cəza verilməlidir ki, başqalarına da görk olsun.

***- Xüsusilə də İran meylli şəxslərdən ibarət narkoşəbəkənin ifşa olunması onların Tehrana bağlantısını ortaya qoymurmu?***

- Azərbaycana narkotik maddələrin İran tərəfindən keçirilməsi yeni hadisə deyil. Biz gözümüzü açandan bu barədə faktlar eşidirik. Sərhədçilər bu cür narkotik daşıyıcıları haqqında davamlı məlumatlar verirlər, bunlar saxlanılır, barələrində tədbirlər görülür. Amma təəssüf ki, proses gedir. Mən o adamların fikriylə şərikəm ki, İrana bağlı olan, İrandakı narkotik şəbəkəsinə bağlı olan adamlar birmənalı şəkildə Tehranda bu işlə məşğul olan, dövlət səviyyəsində stimullaşdırılan bu şəbəkə ilə birbaşa bağlıdır. Ona görə, bunlar ikiqat təhlükəlidirlər, həm dövlətin maraqları, həm narkotikin Azərbaycanda yayılması baxımından. Bu cür məsələlər ortaya çıxanda da, hesab edirəm ki, çox ciddi şəkildə araşdırılmalı, ciddi cəza verilməlidir. Tehran rejimi də bilməlidir ki, onun Azərbaycana qarşı apardığı soyuq müharibəyə, iqtisadi müharibəyə, narkotik alverinə qarşı ölkəmizdə ciddi müqavimət var.

***- Azərbaycanda din pərdəsi altında bəzi “dindarlar”ın narkotik ticarətilə məşğul olması İranın ölkəmizə qarşı açdığı “narkotik savaşı”nın tərkib elementi hesab oluna bilərmi?***

- Məsələlərə bu cür yanaşma ciddi şəkildə faktlara söykənməlidir. Yəni biz təsəvvürümüzdə, qənaətimizdə belə düşünə bilərik ki, bu cür faktlar var. Əgər bunu statistika göstərirsə ki, istər İranda, istər Azərbaycanda din pərdəsi altında bir-biri ilə əlaqəli şəbəkə və ya dəstələr var, bununla bağlı, əlbəttə, ciddi tədbir görülməlidir. Çünki bir ölkənin digər ölkəni zəiflətməyə yönəlik addımları içərisində iqtisadi təbliğatlar, ideoloji təbliğatlar var. Təbliğat təxribatı var. Əlbəttə ki, narkotik satışıyla bağlı fəaliyyət də bu sahəyə aiddir. Ona görə də, bizim cənub zonasında, sərhəd rayonlarında yaşayan vətəndaşlarımız çox diqqətli və ayıq olmalıdırlar. Hansı ki, onları bəzən bu cinayətin qurbanlarına çevirirlər. Amma elə addımlar atılmalıdır ki, onlar həm özləri, həm də yeniyetmələri bu təhlükəli bəladan qoruya bilsinlər. Burda əsas məsələ ondan ibarətdir ki, dövlət öz sərhədlərini mötəbər şəkildə qoruyur. Vətəndaşlar da bu məsələdə dövlətin hüquq mühafizə orqanlarının yanındadır ki, onların sərhədlərində ölkəyə zərər vura biləcək bu cür addımlar atılmasın.

Amma bütövlükdə götürəndə, sualın cavabı ondan ibarətdir ki, əgər düşünülmüş şəkildə din, ticarət pərdəsi altında Azərbaycana İran tərəfdən kütləvi, mütəşəkkil dəstə vasitəsilə narkotik maddələr göndərilirsə, bu, birbaşa İran rejiminin ölkəmizə açdığı “narkotik savaşı”nın tərkib hissəsidir. Və bunların qarşısı qətiyyətlə alınmalıdır.

> Məsələlərə bu cür yanaşma ciddi şəkildə faktlara söykənməlidir. Yəni biz təsəvvürümüzdə, qənaətimizdə belə düşünə bilərik ki, bu cür faktlar var. Əgər bunu statistika göstərirsə ki, istər İranda, istər Azərbaycanda din pərdəsi altında bir-biri ilə əlaqəli şəbəkə və ya dəstələr var, bununla bağlı, əlbəttə, ciddi tədbir görülməlidir. Çünki bir ölkənin digər ölkəni zəiflətməyə yönəlik addımları içərisində iqtisadi təbliğatlar, ideoloji təbliğatlar var. Təbliğat təxribatı var. Əlbəttə ki, narkotik satışıyla bağlı fəaliyyət də bu sahəyə aiddir...

***- Sizcə, ölkəmizdə narkoticarətə qarşı aparılan kampaniya nəticəsində İrana meylli dini şəbəkənin nəzarətə götürülməsinə ehtiyac varmı?***

- Mən hesab edirəm ki, antinarkotizm tədbirləri heç bir kampaniya ilə əlaqəli olmalı deyil. Bu addımlar aparılmalıdır. Bu preventiv, proflaktik tədbirlər davamlı görülməlidir. İran tərəf də görəndə ki, onun göndərdiyi missionerlər, narkotik daşıyıcıları azərbaycanlılar tərəfindən yaxalanır, Azərbaycan xüsusi xidmət orqanları bu məsələyə xüsusi diqqət yetirir, deməli, bu işlə məşğul olan şəbəkə artıq öz işini biləcək. Onlar əmin olacaq ki, Azərbaycan düşündükləri kimi zəif ölkə deyil, öz sərhədlərini, öz vətəndaşlarını “narkotizm sunamisi”ndən qoruya bilir. Bu, Azərbaycan dövlətinin çox böyük üstünlüyüdür.

***- Din xadimlərinin narkotik alveri ilə məşğul olması bilavasitə Qafqaz Müsəlmanları İdarəsini də hədəfə gətirir. Bu məsələdə QMİ-nin məsuliyyət payı varmı?***

- Mən birinci suala cavab verəndə də demişdim, biz dəqiq müəyyənləşdirməliyik ki, dindar, din adamı, yaxud din xadiminin Qafqaz Müsəlmanları İdarəsilə əlaqəsi varmı, yoxmu. Yoxdursa, bunlar o idarənin də adından sui-istifadə edərək, öz çirkin əməllərini reallaşdırırlar. Əlbəttə, din xadimlərinin mütəşəkkil halda və yaxud müəyyən dini rütbə daşıyan adamların narkotik ticarəti ilə məşğul olması bütövlükdə din xadimlərinin adına ləkədir. Belə deyək ki, istər-istəməz Qafqaz Müsəlmanları İdarəsi ilə bağlı da müəyyən dərəcədə suallar doğurur. Amma indi hərənin öz məsuliyyət dairəsi var. Qafqaz Müsəlmanları İdarəsinin vəzifəsi müəyyən dini təbliğatlar aparmaq, insanları xeyirxahlığa, humanizmə çağırmaq, dini mərasimləri keçirmək, təqvimlə bağlı dini tarixləri qeyd etmək və sairdir. Yəni onların elə bir səlahiyyəti və ya imkanları yoxdur ki, öz sferalarında, öz sahələrində bu cinayət əməli ilə məşğul olan insanlara qarşı tədbirlər görsünlər və ya onlarla bağlı hansısa əməliyyat həyata keçirsinlər. Bu, çox ciddi məsələdir. Bunu təkcə dini xadimlərinin öhdəsinə qoymaq ki, onlar bununla mübarizə aparmalıdır, doğru olmaz. Ümumiyyətlə, hər bir kəs, hər bir vətəndaş narkotizm fəaliyyətində fəal olmalıdır. Biz gənc nəsli, narkotikə meylli olan insanlarımızı fəlakətdən xilas etmək üçün ciddi addımlar atmalıyıq.

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

Cəmiyyətimiz üçün önəmli, əhəmiyyəti olan bir sıra sahələrdəki fəlakətli vəziyyətlərin səbəblərini soraqlayaraq, bu vəziyyətdən israrla çıxış yollarını arayan İ.Sabirqızının bu fədakar fəaliyyətini ancaq təqdir edib, alqışlamaq olar.

# Problemlərin kökü harda gizlənir?

Təəssüf ki, İ.Sabirqızının müsahibə aldığı bütün adamlar problemlərin səbəbinin kökünü axtarmağın zəruri olduğunu elan etsələr də, bu səbəbləri ağacın kökündə deyil, qol-budağı, yarpağı, hətta meyvənin özündə axtarırlar...



*(Əvvəli ötən saylarımızda)*

Pul yığılmaq məsələsinə gəldikdə isə, bu prosesin əsas iki böyük həcmli istiqaməti var. Bunlardan biri və birincisi dövlət büdcəsindəki pulların müxtəlif üsullarla silinərək mənimsənilməsidir ki, bu məsələ çox zaman nazirliklər səviyyəsində geniş ictimaiyyətin nəzərindən uzaq, qapalı şəraitdə baş verdiyindən əhalinin əksəriyyəti bundan xəbərsiz olur. İkinci istiqamət isə bilavasitə hakimiyyətin birinci eşalonuna bağlı olmayan xüsusi mülkiyyət kateqoriyasına aid olan ticarət, iaşə, tikinti, təhsil, tibb, kiçik istehsal sahələrindən alınan aylıq haqq, rüşvət və s. qanunsuz yığılan pulların yuxarıya ötürülməsidir. Bu qəbildən olan çoxsaylı faktları nəzərə aldıqda irihəcmli maliyyə dələduzluqları və cinayətlərinin istisnasız olaraq dövlət piramidasının yüksək çinli məmurları tərəfindən təşkil edilərək, bütövlükdə dövlət məmurları tərəfindən icra edilən dələduzluq və cinayətlər olduğu məlum olur.

Sadə vətəndaşların xırda dələduzluq, oğurluq kimi cinayətlərinə gəlincə bütün bunlar dövlət məmurlarının irimiqyaslı dələduzluq, cinayətlərinin nəticəsi olaraq çarəsiz duruma salınmış sadə insanların mövcud olmaq üçün son çıxış yolu olaraq əl atdıqları əməldir.

Ə.Mustafayevin dələduzluğun qarşısını almaq üçün adını çəkdiyi 2011-ci ildə qəbul edilmiş “dövlət qulluqçularının gəlir deklarasiyası haqqında” qanunun tətbiqinin təxirə salınması da, mahiyyət etibarilə AXC-çi məmurların öz vəzifələrini dondurması ilə eyni olub, məqsədli şəkildə atılmış addımdır. Həm də bunun tətbiqini sadə vətəndaşlar təxirə salmayıb.

Azərbaycanda mütləq gəlir vergisi deklarasiyasının tətbiq edilməsinə gəldikdə isə, mövcud quruluşda bu da ancaq sadə vətəndaşların son tikəsini də əlindən almaq üçün məmurlara bəhanə verməkdən başqa heç nə ilə nəticələnə bilməz. Belə ki, son 33 ildə nəinki vergi qanununu, istisna edilmədən məmurların vəzifə və kriminal cinayətlərinə zərrə qədər belə mane ola biləcək qanunlardan tutmuş, ölkə konstitusiyasına qədər istənilər qanunu, istənilən şəkildə pozan məmur ordusu, ilk növbədə bu ordunun generalları üçün vergi deklarasiyasının tətbiqi təxirə salınmasa belə, onu tapdalamağın heç bir problemi yoxdur. Çünki, nə qədər ki, ölkə konstitusiyasının III maddəsi hakimiyyəti QANUNA deyil, məmura (Prezidentə) verib, ölkədə normal bir iqtisadi-ictimai durum yaratmaq mümkün deyil. Normal iqtisadi-ictimai quruluş qurmaq üçün isə ilk növbədə cəmiyyətin iqtisadi quruluşunda əsaslı islahat aparılmalıdır.

Belə ki, cəmiyyətin iqtisadi sistemi yaradılacaq quruluşun (ağacın) kökü, bu əsas üzərində yüksələn ictimai (hüquqi, inzibati, təhsil, tibb və s.) sistemləri ağacın gövdəsi, istehsal, tədavül, təhsil və s. müəssisələr, infrastrukturlar ağacın budaqları, bütün sahələrdə olan inkişaf onun şirin meyvəsi, problemlər isə acı meyvəsidir.



Təəssüf ki, İ.Sabirqızının müsahibə aldığı bütün adamlar problemlərin səbəbinin kökünü axtarmağın zəruri olduğunu elan etsələr də, bu səbəbləri ağacın kökündə deyil, qol-budağı, yarpağı, hətta meyvənin özündə axtarırlar.

Vaxtaşırı kimlərisə həbs edərək zindana atmaq, kimlərisə terror etmək, yaxud idarəetmə formalarının, “qanunların” çulunu dəyişmək insanlarda sabaha saxta ümidlər yaratmaq üçün tətbiq edilən tədbirlər, məşhur lətifədə deyilən “sarımsaq-qatından” başqa heç nə deyil və cəmiyyətdə mövcud olan heç bir, az-çox əhəmiyyətli problemi həll edə bilməz.

Problemlər isə artıq yığılaraq ölkəni barıt çəlləyi kimi sosial partlayışa hazır vəziyyətə gətirib. Ölkənin vəziyyəti bir də ona görə fövqəladə dərəcədə təhlükəlidir ki, Azərbaycan düşmənlərin əhatəsindədir. Həm də bu “barıt çəlləyi”nə qığılcım atıb tətikləməyə, yaxınlı-uzaqlı bir çox güclü, imkanlı ölkələrin maraqları və real imkanları var. Əgər düşmənlərimiz ölkədəki bu təhlükəli durumdan sui-istifadə edib, sosial-partlayışı tətikləyib, alovlandırsalar nə hakimiyyət, nə də sadə vətəndaşlar fəlakətdən yaxa qurtara bilməyəcəklər. Bu fəlakətən yaxa qurtarıb, ölkəni normal həyat və inkişaf istiqamətinə yönəltməyin yeganə yolu hakimiyyət - vətəndaş cütlüyünün hər iki tərəf üçün məqbul olan orta məxrəc müstəvisində və çərçivəsində əsaslı kompleks iqtisadi-ictimai islahatlar həyata keçirərək, bu gün nəinki Qərbin demokratiya, ədalət, insan hüquqları şüarları altında başqalarına sırıdığı quruluşu, hətta ondan daha mütərəqqi və həm hakimiyyətin, həm də bütün vətəndaşların məmuniyyətlə qəbul edəcəyi ilə bərabər, istinasız olaraq bu gün Azərbaycana demokratiya, ədalət mühazirəsi oxuyan və oxumaq iştahında olan ölkələrin dillərini dinməzlərinə qoymağa məcbur edən mütərəqqi iqtisadi-ictimai quruluş qurmaq çətin bir məsələ də deyil. Biz hakimiyyətin konkret tələblərini bilsək, 7-10 gün ərzində belə bir quruluşun modelini, bir neçə ay ərzində isə həyata keçirilməsi zəruri olan islahatların kompleks layihəsini bütün istiqamətlər üzrə kiçik detallarına qədər işlənilməsini təşkil edə bilərik.

Təcrübəli hüquqşünas məhz buna görə, böyük dələduzluğun cəzasızlığının qabağının alınmasını ön plana çəkir. O, kiçik dələduzluğun, cinayətlərin baş verməsinin əsas səbəbnin böyük dələduzluq, cinayət törədənlərin cəzasızlığından törənməsini birbaşa söyləməsə də, bunu diplomatik formada ifadə edir. “Mən qanundakı boşluqdan deməzəm, amma qanunun tətbiqində çox ciddi problem var. Boşluqları hətta bu halda da saxlasaq, qanun bir az ciddidir...

Lakin islahat layihəsinin bütün istiqamətlər üzrə kiçik detallarına qədər işlənib hazırlanması üçün, buna hakimiyyətin marağı, razılığı, təşkilati dəstəyi olmadan, onu hazırlayıb, həyata keçirmək mümkün deyil. Düşünürəm ki, ölkə başçıları belə bir islahat imkanının mövcud olmamasından xəbərsizdir. Çünki, beynəlxalq şəraitin bu günə qədər olan belə mürəkkəb durumunda ölkəni bu proseslərin təhlükəli labirintindən salamat çıxaran adamın mövcud quruluşun, ilk növbədə ölkə rəhbərliyini, vətəndaşları, dövlətçiliyimizi sürətlə fəlakətə sürüdüyünü dərk edə bilmədiyini düşünmək heç bir məntiqə uyğun gəlmir. Həm ölkə rəhbərliyinin, həm xalqın, həm də dövlətçiliyimizin fəlakətdən yayınmağının əsas şərti belə bir islahatı vaxtında, yəni fəlakət baş verməmiş qabaqlayıcı tədbir olaraq həyata keçirməsidir.

Bu gün həyata keçirilən məmurların “gəncləşdirilməsi” islahatı mövcud vəziyyəti dəyişmək, sürətlə yaxınlaşan təhlükəni neytrallaşdırmaq imkanına malik deyil. Belə ki, bu günədək mövcud olan qanunsuzluğu gecə-gündüz durmadan istehsal edən dövlət mexanizmi bu gün vəzifələrə təyin edilən gənc kadrları da tezliklə quldura, cinayətkara çevirəcək. Molla Nəsrəddinin lətifələrində deyildiyi kimi, yenə də, “danalar böyüyüb, öküz olacaq”.

**Şapur QASİMİ**

# "Türk dünyasının döyük oğlu"

## Ənvər Börüsoyun ölümündən sonra ilk kitabı işıq üzü gördü

**...Həyatımın ən sevincli günlərindən biridir. Dostum, qardaşım Ənvər Börüsoyun ilk kitabı çapdan çıxdı. Heyif, Ənvər bu günü görmədi.**

**Həyatın özünəməxsus yazılmamış qanunları var. Bəşəriyyət üçün gərəkli dahi insan olsan belə, pulun, «dayın», öləndən sonra qohum-əqrəban yoxdursa, mütləq unudulub gedəcəksən... Hətta bəzən xoşbəxt yaşamaq üçün çox vaxt klassik yaltaqlıq, riyakarlıq, ikiüzlü, yalançı olmaq, şəxsiyyətini güdaza vermək "dadına" yetəcək...**





* * *

Hələ körpə vaxtı ata-anasını itirən, Gəncə uşaq evində böyüyən və Mingəçevir İnternat məktəbində orta təhsil alan Ənvər Yusif oğlu Börüsoy Türk Dünyasının nadir şəxsiyyəti idi... Bəs Ənvər Börüsoy, əslində, kim idi?

Ənvər Azərbaycan mətbuatında «Ənvər Yusifoğlu» və «Ənvər Börüsoy» imzası ilə 33 il araşdırmaçı jurnalist kimi fəaliyyət göstərib. Ənvər Börüsoyun Türk milli şüurunun formalaşmasında ona mənəvi ata olmuş Xudu Məmmədovun böyük əməyi olmuşdursa, peşəkar jurnalist kimi yetişməsində isə Qulu Məhərrəmlinin əməyi və təsiri danılmazdır.

Mən Ənvər Yusif oğlu Məmmədovu 1982-ci ildən Mirzağa Əliyev adına Azəbaycan Dövlət İncəsənət İnstitutunda təhsil aldığımız illərdən düz vəfatına kimi tanıyıram. Türk Dünyasını dərk etmək və bu dünyanın fəal üzvü olmağımda dostum və əqidədaşım Ənvər Börüsoyun əməyini heç vaxt unutmaram.

Mənəvi cəhətdən Ənvər bizim ailəmizin bir üzvü olub. Nə rəhmətlik anam, nə də bacı və qardaşlarım onu məndən heç vaxt ayırmayıblar. Qürbətdə yaşadığım illərdə tez-tez Lehistana və Niderlanda bizə qonaq gələrdi...

* * *

Ənvər uzun illər Azərbaycan həqiqətlərini və Qarabağ problemi ilə bağlı Saxa (Yakutiya), Tatarıstan, Başkortıstan, Dağıstan, Çeçenistan, Altay, Tuva, Xakasiya, Qaraçay-Balkar, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstandakı KİV-lərdə məqalələri ilə müntəzəm çıxış edib. Türk boylarının danışdıqları fərqli dilləri elmi tədqiqat baxımından və onun qədər dərindən bilən ikinci bir bilim adamı Türk Dünyasında olmayıb.

* * *

Ənvər Börüsoy şəxsən sədri olduğum "Azərbaycanın Dostları" təşkilatının xətti ilə "I Qarabağ Müharibəsi" dönəmində Lehistan (Polşa) və Litvadakı yerli tatar icması, eləcə də "Occupation" hərəkatının polyak və litvalı dostlarımız ilə birlikdə Azərbaycana dəstək üçün keçirilən bütün aksiyalarda fəal şəkildə iştirak edibdir.

Azərbaycanın milli mətbuatında "Xudafərin" jurnalı, "Gənclik" jurnalı, "Aydınlıq", "Səs", "Kimlik", "Türkün səsi", "Avrasiya", "Təzadlar", "Gündəlik Azərbaycan", "Türküstan", "Ayna", "Yeni sözçü", "Hürriyyət" və sair qəzetlərlə işləyib və bu mətbu orqanlarda milli-mənəvi dəyərlərimizlə bağlı həmişə aktual olan yüzlərlə qiyməti məqalələr yazıb.

Ənvər Börüsoy bütün yazılarında Azərbaycan dövlətçiliyini və milli maraqları üstün səviyyəyə qaldırmış, Türk millətlərinin birlik konsepsiyasını ortaya qoymuşdu.

Keçən əsrin 90-cı illərinin o ağır vaxtlarında, diplomatiyamızın hələ yeni yaranmış zəif dövründə Ənvər Börüsoyun təkbaşına Türk Cümhuriyyətləri və muxtar diyarları ilə bağlı apardığı özəl birləşdirici fəaliyyətini hələ bu günə kimi heç kim görməmişdir. Bunların hamısını məhdud maddiyatla şəxsən özü həyata keçirirdi.

1993-cü ildə Türkiyənin təşəbbüsü ilə ilk dəfə keçmiş sovetlərdə mövcud olan türksoylu türklərlə görüşə, demək olar ki, uzaq Yakutiya, Sibirya olmaq şərtiylə, bütün keçmiş SSSR-dən gələn qonaqları Ənvər Börüsoy dəvət etmişdi.

* * *

Onlarca yazarların, Güneyli, Quzeyli bir çox bilim adamlarının kitablarına redaktorluq etmiş, nəşrinə nail olmuş Ənvər Börüsoyun isə öz kitabı olmamışdır və "Türk Dünyasının Böyük Oğlu" adlı bu ilk dəfə nəşr edilən kitaba onun özünün bir neçə məqaləlçri daxildirg Əlbəttə, "Nərmin Yayın Evi" tərəfindən yüksək keyfiyyətlə çap olunan 380 səhifəlik kitaba onun bütün məqalələrini yerləşdirmək mümkünsüzdür... Bundan sonra biz onun bütün məqalələrini əhatə edən çoxcildli kitablarının nəşrinə başlayacağıq... İstər Avropada, istərsə Azərbaycanda bir neçə qiyməti kitabların işıq üzü görməsinə maddi və mənəvi dəstək verən bu yazının müəllifi, öz dostu və əqidədaşı olan Ənvər Börüsoyun kitabının çapına verməyə puldan korluq çəkirdi. gVə biz dəyərli soydaşlarla birgə "Qarabağın Dostları" adlı bir fond yaradıb, dəyərli, ziyalı xanım Tahirə Şuşalını fonda rəhbər seçdık. Beləcə, bu qısa zaman kəsiyində fondumuza kifayət qədər pul toplandı. Bax beləcə, fondumuzun köməyi ilə Ənvər Börüsoyun kitabının nəşrinə nail olduq, həmçinin ehtiyacı olan fondumuzun ziyalı üzvlərinə maddi kömək edə bildikg

* * *

**Beləliklə, Güney Azərbaycanımızın böyük oğlu, el aşsaqqalı, müdrik Aşıq Abbas Tufarqanlı prizmasından yanaşaraq, bir kimsənin minnətini götürmədən kitabın çapına nail olduq. Bizlər Tufarqanlı ideyasını reallaşdırıb, aşığın dediyi nəsihətlə, minnətsiz-sünnətsiz çox faydalı işlər görə bilərik:**

Abbas bu sözləri deyər sərindən,
Arxı vurdur, suyu gəlsin dərindən.
El bir olsa, dağ oynadar yerindən,
Söz bir olsa, zərbi kərən sındırarg

Sonunda çox istərdik ki, Mətbuat Şurası, Yazıçılar Birliyi və vicdanlı Azərbaycan ziyalıları Ənvər Börüsoyun bu ilk kitabının təqdimatında və təbliğində öz köməkliklərini əsirgəməsinlər...

Bir də arzu edərdim ki, nəinki Azərbaycanda, eləcə də bütün Türk Respublikalarında Ənvər Börüsoyun adının dəyərləndirilməsi istiqamətində çaba sərf edilsin. Şübhəsiz, bu işdə Türk Dünyasının birliyini arzulayan hər bir vicdanlı soydaşımızın dəstəyinə ehtiyac var...

**Elman MUSTAFAZADƏ**
***Avopada "Azərbaycanın Dostları" Cəmiyyətinin sədri, «Xudafərin» jurnalının baş redaktoru***

# Xırdalanda əri tərəfindən öldürülən qadının qonşusu danışdı



**Abşeron rayonunun Xırdalan şəhəri, Nəsibə Zeynalova küçəsində qətl hadisəsi baş verib. Hurriyyet.az xəbər verir ki, 48 yaşlı Sevinc Əhmədağayevanın 50 yaşlı həyat yoldaşı Laçın Əhmədağayev tərəfindən öldürüldüyü bildirilib.**

Mərhumun qonşusunun sözlərinə görə, cütlük arasında indiyədək heç bir söz-söhbət olmayıb:

"Laçının arvadını qətlə yetirməsini eşidəndə şoka düşdüm. Beş ilə yaxındır burada olurlar, heç vaxt mübahisə etdiklərini görməmişəm. Çox sakit gəlin idi. Yoldaşı da pis deyildi. Qızlarının üç yaşı olacaq. Belə dedilər ki, başı kəsilib".

Qeyd edək ki, faktla bağlı Abşeron Rayon Prokurorluğunda cinayət işi başlanılıb. Laçın Əhmədağayev şübhəli şəxs qismində tutulub.

# Qətldə şübhəli bilinən şəxs ürəktutmadan öldü



**Bakının Xəzər rayonunun Buzovna qəsəbəsi ərazisində 1979-cu il təvəllüdlü Sadiq Əhmədovun üzərində kəsilmiş-deşilmiş xəsarət izləri olan meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Bu barədə Xəzər Rayon Prokurorluğundan məlumat verilib.

Bildirilib ki, araşdırmalarla 1954-cü il təvəllüdlü, əvvəllər məhkum edilmiş Vaqif Dadaşovun aralarında yaranmış mübahisə zamanı bıçaqla xəsarətlər yetirərək Sadiq Əhmədovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Cinayət əməlini törətməkdə şübhəli bilinən Vaqif Dadaşov hadisədən bir qədər sonra ürəktutmadan vəfat edib.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsilə cinayət işi başlanıb.

İbtidai istintaq davam etdirilir.

# Atasını bıçaqlayan qız psixiatriya xəstəxanasına yerləşdirildi



**Bakıda yaşadığı evdə atasını bıçaqlamaqda təqsirləndirilən qızın cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

"Qaynarinfo" xəbər verir ki, 1994-cü il tarixdə Bakı şəhərində anadan olmuş Ülviyyə Şükürova (soyad şərti) 22 avqust 2023-cü il tarixdə, saat 13:30 radələrində ailə münaqişəsi zəminində atasını döş boşluğundan bıçaqlayıb. 22 avqust 2023-cü il tarixdə şübhəli şəxs qismində tutulan Ülviyyə barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Aparılan araşdırma zamanı təqsirləndirilən şəxsin psixi pozuntular nəticəsində hadisəni anlaqsız vəziyyətdə törətməsi məlum olub.

Məhkəmənin qərarına əsasən, Ülviyyə Şükürova Cinayət Məcəlləsinin 126.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlini anlaqsız vəziyyətdə törətdiyi üçün cinayət məsuliyyətindən azad edilib və haqqında ümumi tipli psixiatriya stasionarında məcburi müalicə növündə tibbi xarakterli məcburi tədbir təyin olunub.

Su təmizlikdir, çirkli nə varsa suya çəkilir, paklaşır. Su həm də yanğını söndürür, xüsusilə, insan yanğısını. Balıqlar ona görə digər heyvanlardan ətinə görə faydalıdır, mədədə tez həzm olunur, qanı durulдur. Hətta ilan zəhərini su zərərləşdirir, ən bariz nümunəsi zəhərli su ilanın suda "neytrallaşmasıdır".



**Allahverdi Eminov**

## Pritçalar



# Qadınlar üçün qurbağa dərisi...

Ən böyük anakonda cinsli ilanlar suda yaşaya bilir, su mühitinə alışırlar. Və bu ilanlar başından da kiçik həcmli qurbağaya hərisdilər, suyun üzünə çıxan bu iri gözlü heyvanların qorxduğu ilandır, necə ki, gördü - dərhal özünü suyun altına verir və canını qurtarmağa cəhd edirlər. Amma qurbağa canını ilandan qurtarırsa, iki ayaqlı, iki qollu, bir başlı insana təslim olur. Vyetnam, Koreya, Yaponiya kimi cənub dövlətlərinin sakinlərinin ən əziz menyusunda qurbağa "tabakası"nın öz payı vardır. Deyirlər ki, onların qurbağaları bizim qurbağalardan fərqlənir, qoy olsun, heç kəs "ayranına turş" deməz. Hər halda qurbağadır! Bəs qurbağa - su heyvanı başqa nəyə yarayır? Sual üzərində "işləyənlər" tədqiqatlarında yanılmamışlar. Belə ki, qurbağa - bu iyrənc, ilan görəndə gözləri lampoçka kimi yanan heyvan təsadüfi deyil - ilanların da sevimli qidasıdır. Bu heç də nağıl deyil. Alimlərin qənaətincə, qurbağa dərisindəki selik xüsusən, yağ ifrazı qadın dərisinin gözəlliyi üçün faydalıdır, dərini hamarlaşdırır, elastikləşdirir, parlaqlaşdırır, yəni dodaqlarını qurbağa dərisinə toxunduran qadın sanki şahzadəyə çevrilir və gözəlləşir. Görünür, fransızlar qurbağanı milli mətbəxə daxil etməkdə bu fakta əsaslanmışlar.

Qurbağa dərisinə meyilli xanımlarda iyrənc heyvana olan fobiya gözəllik və gənclik dövrünü süni şəkildə uzatmaqdır. Belə tipli qadınlar ondan ehtiyatlanırlar ki, intimli həyatlarında kişilər onlardan aralanarlar, yaxud yatağa könülsüz girərlər, bilmirlər belə qadınların yanaqları qurbağa dərisindən yağlanmışdır.

Təsəvvür etməyə dəyər ki, cənubluların əcdadları müntəzəm qidalanmaq üçün ən münasib mənbəni qurbağalarda tapmışlar. Onlar xüsusi gölməçələrdə süni qurbağalar yetişdirir və xaricə ixrac edirdilər. Əcdad nəsil qurbağalarla kifayətlənməyib ilan (koramal xüsusilə), tısbağa, kərtənkələ və s. heyvanların ətindən qidalanmağa aludə oldular. Təsadüfi deyil ki, bu heyvanların əti xaricilər üçün "delekates" (ən dadlı) sayılır. Yüz illər bu cür heyvanların ətilə müntəzəm qidalanan, xüsusilə, qadınların bədəni iy verir, qoxusu xoşagələn deyil. Təsadüfi hesab etməyək - İslamda belə əcaib heyvanların ətini yemək qadağandır. Məhəmməd peyğəmbərin bir uzaqgörənliyi də məhz bundadır...

Xatırlayıram: əsrimizin əvvəllərində cənublular bizim məmləkətdə qurbağa yetişdirmək arzusunda idilər, hətta təşəbbüs göstərdilər. İnsaflı müsəlman biznes quranlarımız yaxşıki razılaşmadılar. Çəkindilər qadınlarımız qurbağa dərisinə aludə olarlar! Nə yaxşı ki belə alındı. Yoxsa qurbağa səsinə həsrət qalardıq...

### Sirk və ayı üçün konfet

Ötən əsrin 80-90-cı illərində uşaq və yeniyetmələrin Sirkə güclü meyli vardı, SSRİ-nin müxtəlif şəhərlərini təmsil edən sirk truppaları Bakıya müntəzəm qastrol səfərləri edirdilər. O vaxt məktəbli uşaqlarımı Sirk tamaşalarına aparırdım, həvəslə baxır, zövq alırdılar. Onların fikrindən nə keçirdi - soruşmurdum. İndi təəssüflənirəm səhvdə olmuşam. Bu, biz valideynlərin böyük səhviymiş. Axı, uşağın daxili fərəh və faciələrini heç vaxt yaşlılar anlaya bilməmişlər. Bu uşaqlar yaşa dolduqca hər şeyi başa düşəcəklər - bu ümidi varlığımızda yaşatmışıq.

Xatırlayıram: sirkin arenasına çıxan vəhşi heyvanlar uşaqları daha çox maraqlandırırdı. Atları qamçılayanlara hirslənir: "Ata, atların nə günahı var, qamçını havada oynadır, sonra yancaqlarında şaqqıldadırlar", - pıçıldayırdı. Mən uşağın diqqətini yayındırmaq istəmirdim...

Atlar öz işlərini başa vurub, arenanı tərk edirdilər. Onları vəhşi şirlər, ayılar əvəzləyirdi. Təlimçilər isə şirləri, ayıları ram etmək üçün cibindən konfet çıxarıb heyvana verirdilər. Ağzı şirinləşən şirlər və ayılar təlimçinin göstərişlərini dərhal icra edirdilər. Beləliklə, uşaqlar sirkdəki "oyunbazlardan" zövq alırdılar. Bəli, bu tamaşaya baxan uşaqlar əl çalır, sevinirdilər, biz yaşlılar isə uşaqlaşırdıq. Ani olaraq həyatda baş verən hadisələri: ziddiyyətləri, haqsızlıqları xəyalımızdan keçirir, belə olayların "qamçılanmasını" arzulayırdıq. Halbuki, atların günahı nəydi? Şirləri və ayıları konfetlə aldadan təlimçiləri əvəz edən məmurlar bir konfetlə camaatın başını qatırlar.

Sirk mənim üçün həyatın canlı modeli kimi yaddaşımda yaşayır. Sirk mənim üçün əyləncə deyildi, sadəcə cəmiyyətin arenaya çıxarılan atributu idi. Sirk mənim üçün uşaqların əyləncə yeriydi. Sirk mənim üçün yaşından asılı olmadan diqqət mərkəzinə düşən incəsənətin bir növüdür. Çün, sirkdə uşaqlar sevinir, əl çalır, ayağa qalxıb vəhşi heyvanları alqışlayırlar. Sirk mənim yozumumda tamaşaçılar və uşaqlar üçün sevgidən başlayır, bu mənada kəndirbazlar, janqlyorlar, gimnastlar peşələrini nümayiş etdirirlər, balaca tamaşaçılarını "aldadırlar". Hələlik bu uşaqlar üçün arenada baş verənlər yalnız əyləncə üçündür. Təlimçilər isə qamçı və konfetlə heyvanları aldadırlar, minbir oyundan çıxarırlar. Eyni zamanda özlərini aldadırlar.

Sirkdə əyləncələri musiqi müşayət edir, asta və təntənəli melodiyaların sədaları altında arenada kəhər atlar qaçışır - qamçılar şaqqıldayır, şirlər və ayılar bir konfetin sorağında ayaqlarını yuxarı qaldırır, ağızlarını açır, təlimçidən şirin nəsə umurlar. Musiqi isə səslənir...

İllər yetişdi, uşaqlarım mənim yaşıma çatdılar, kiçik oğlum mühəndis ixtisasına yiyələndi, fabrikdə sex rəisi vəzifəsini tutdu, işləri pis getmirdi. Yeni ildə köhnə direktoru vəzifədən götürdülər - iclasda "baş direktorun" aşını bişirmişdi, xəbər tutub oğluma dedim ki, nahaq belə danışmısan, indi "böyükləri" tənqid etmək dəbdə deyil, altını çəkirlər bu cür adamlar. Oğlum mənimlə razılaşmırdı, inadından dönmək istəmirdi:

- Ata, - astadan pıçıldadı. - Fabriki batırıbdır palçığa, gələndən ancaq geriləyirik, mukafatlardan məhrum oluruq. Günü xarici ölkələrə səyahətdə keçir, büdcəni sıfıra endirib. "Yuxarıdakı"nın yaxın qohumudur, həm də yerlisidir.

Oğlum ayağa qalxdı, yan otağa keçdi və əlində salafan torbada qayıtdı.

- Ata, dünən işçilərə verdiyi mukafat bir kilo konfet oldu. Budur!

Mən gülümsədim.

- Oğul, - dedim. - Yadından çıxmayıb ki?

Təəccüblə üzümə baxdı:

- Nəyi deyirsən, ata? Olmaya bizi sirkə apardığın illəri nəzərdə tutursan?

Yadındamı, təlimçi şirə, ayıya konfet verib oynadırdı!

- Xatırladım, ata, deyirsən təzə direktorun da!

- Deyirsən, qamçısız, konfetsiz dünya axtaraq. O dünya varmı?

- Yox, elə bu dünyada yaxşı şeyi, haqqı tapmaq olar, tələsmə. Sən də dilinin altına şəkər qoy. Ulu Nizami yazıb ki:

***Bu cürə bəzəkli bir dünya varkən***
***Bir də başqa axtarmaq nədən?***
***Yaşamaq olursa harada mümkün,***
***Ayrı bir dünyaya köçmək nə üçün?***
***Əgər orda isə bizim yerimiz***
***Əvvəlcə bəs bura neçin gəldik biz?..***

# Qarayazının ilk deputatı: Quldurların qurbanı olub



**XX əsrin əvvəllərində Çar Rusiyasının çöküşü prosesi başlanılmışdı. İmperiya bir-bir nəzarəti altında olan əraziləri itirirdi. Baş verənlərin fonunda Cənubi Qafqaz da kənarda qala bilməzdi. Etirazların fonunda milli məfkurə ideologiyası sürətlə yayılmağa başlayırdı. İstər Azərbaycanda, istər Gürcüstanda proseslər tamam başqa istiqamətdə davam etsə də, Ermənistanda qatı millətçilik, "böyük Ermənistan" xülyaları fonunda inkişaf edirdi.**

Gürcüstanda demokatik hərəkat uğrunda gürcü siyasətçiləri ilə yanaşı, orada yaşayan minlərə soydaşımız fəallığı ilə seçilirdi və demokratikləşməyə öz töhfələrini verirdilər.

1918-1920-ci illərdə Gürcüstan Demokratik Respublikasının parlament seçkilərində fəal iştirak etməklə yanaşı, həmçinin dövrün qabaqcıl ziyalıları seçkilərdə namizəd kimi iştirak edirlər. Belə şəxslərdən biri də Əli Hüseyn oğlu Hüseynov olub. Əli Hüseynov dövrünün ağıllı, uzaqgörən və cəsur siyasətçilərindən olub. Həmçinin, az araşdırılan şəxslərdən olub. Düzdür, tarix elmləri doktoru Fəxri Hacıyev araşdırmalarında onun adını çəkib. Belə şəxsiyyəti oxucularımıza daha geniş şəkildə tanıtmaq vacib məsələdir. "Maarif" hüquqi, elmi-metodiki maarifləndirmə mərkəzi" İttifaqının sədri, "Maarif" qəzet-jurnalının baş redaktoru Ələddin Qarabağlı ilə Əli Hüseynov haqqında geniş söhbət etmişik.

***- Əli Hüseynov kim olub? Onun həyatı haqqında oxucularımıza məlumat verərsiniz...***

- Əli Hüseyn oğlu Hüseynov 1876-cı ildə Qardabani (Qarayazı) rayonun Ağtəhlə kəndində anadan olub. Uşaqlıq dövrünü atasının yanında - təsərrüfatçılıqda, heyvandarlıqda keçirib. Gənc yaşlarından öz tay-tuşlarından fərqlənən Əli artıq həddi-buluğa çatdıqda dövrünə görə dini anlayışı təhsili ilə yanaşı bir qədər dünyəvi elmlərlə də maraqlanıb və müəyyən dərəcədə təhsilə malik olmuşdur.

25 yaşında ailə həyatı qurub. İki dəfə ailəli olub. Biri Qardabani rayonun Təzəkənd sakini Sultan Tanrıverdi qızı idi. Ondan Adıgözəl, Salman, Şəmsəd, Muxtar və Havaxanım adında övladları olub. Digər ailə həyatı qurduğu qadın Gülsüm Əhmədalı qız idi: Zeynəb, Sura və Turan adında övladları dünyaya gəlib. O, artıq həddi-buluğa çatdıqda onun evləndiyi iki qadından 8 uşağı: 4 oğlu və 4 qız sahibi olub.

***- Bildiyimiz qədər gürcü dilini mükəmməl bilirmiş?***

- Bəli. Uzun müddət Kaxetiya bölgəsində atası ilə birlikdə gürcülərlə yanaşı həmsöhbətdə - ünsiyyətdə olduğundan gürcü dilini mükəmməl (danışıq) öyrənə bilmişdir.

***- Bir qədər də onun parlament fəaliyyətindən danışaq...***

- Qardabani rayonun Ağtəhlə kəndindən Respublikada "Eroba" Yerli özünüidarəetmə orqanları seçki təşkili məsələsi Gürcüstan Demokratik Respublikasının ilk parlament funksiyasını daşıyan Gürcüstan Milli Şurasında namizədliyi Gürcüstan Sosial Demokrat Fəhlə Partiyasının "Hümmət" Sosial Demokrat Müsəlman Təşkilatı ilə razılaşdırılmışdı.

> Qardabani rayonun Ağtəhlə kəndindən Respublikada "Eroba" Yerli özünüidarəetmə orqanları seçki təşkili məsələsi Gürcüstan Demokratik Respublikasının ilk parlament funksiyasını daşıyan Gürcüstan Milli Şurasında namizədliyi Gürcüstan Sosial Demokrat Fəhlə Partiyasının "Hümmət" Sosial Demokrat Müsəlman Təşkilatı ilə razılaşdırılmışdı...

Artıq bu vaxt onun 42 yaşı olardı. O, 1918-ci ilin noyabr ayında keçirilən Tiflis mahalı bələdiyyə seçkilərində bələdiyyə məclisinin deputatı olur. Onun əsas üstünlüklərindən biri o idi ki, qismən də olsa dünyəvi elmi savada malik olmaqla yanaşı, eyni zamanda dövlət dili - gürcü dilini mükəmməl bilirdi.

***- Necə faiz səslə qələbə qazanıb?***

- Ümumilikdə Tiflis qəzası üzrə seçkilərdə 18 216 səs verilir, yəni seçki aktivliyi 43,6% olur. Ümumi səslərin 75,79%-ni Gürcüstan Sosial-Demokrat Fəhlə Partiyası və Gürcüstan Sosialist-Federalist İnqilabçı Partiasından ibarət sosialist bloku, 24,19%-ni isə Gürcüstan Milli-Demokrat Partiyası ilə partiyasız namizədlərin bloku toplayırlar. Beləliklə, qəza "Erobası"na seçilən 45 qlasından 33-ü - Sosialist blokunu, digərlərini GMDP və partiyasız namizədləri təmsil edir. Türk namizədlərindən Əli Hüseyn oğlu (Qarayazı dairəsindən)



Tiflis qəzasının "eroba" qlasnıları, yəni yerli özünidarəetmə orqanlarının deputatları seçilir. 1920-ci il Tbilisi mahalı bələdiyyə məclisi üzvlərinin şəkili şəkildə 3-cü sıradakılar arasında Qardabaninin Ağtəhlə kəndindən seçilmiş Əli Hüseyn oğlu da var. Əli Hüseyn oğlu Sosial Demokratlar və Hümmət partiyasının siyahısından seçilib və şəkil çəkilən zaman təxminən 42 yaşı olub.

***- Onun qəhrəmanlıqları haqqında danışılır. Bildiyimiz, onun qocaqlığı ona böyük manea yaradır. Bu barədə nə deyə bilərsiniz?***

- Deputatlıq fəaliyyəti ilə yanaşı 1918-1928-ci illər arası Qardabani rayonun Ağtəhlə kəndində kənd koxası (indiki, sakrebulo sədri) vəzifəsində çalışmışdı. Gürcüstanda sovetləşmə prosesi dövründə yerli əks inqilabçı quldur dəstələri tez - tez Bakı-Tiflis-Batumi dəmir yolunun Ağtəhlə ərazisində (Qaçiani dayanacağında) yük daşıyan vaqonlara hücum edərək qəraət ilə məşğul olurdular və bu proses get-gedə güclənirdi. Bu vəziyyətin qarşısını almağı Tiflis bələdiyyəsi - Qardabani rayonu rəhbərliyi Əli Hüseyn oğluna xüsusi tapşırıq verir. Təbii ki, Əli Hüseyn oğluna bir deputat və həmçinin kənd koxası kimi ona tapşırılan işin məhsuliyyətini əla dərk edirdi. Ona görə də bu məsələnin konkret həllini özü həlli edəcəyini qəti qərar verir.

Rayon rəhbərliyi ona bildirir ki, ərzaq vaqonu yaxın vaxtlarda Qardabani dəmir yol məntəqəsindən Tiflis-Batumi istiqamətində yönələcək. Əli Ağtəhlə ərazisində (Qaçiani dəmir yol məntəqəsi) müəyyən məkanda gözləmə mövqeyi yaradır və vaqonun stansiyadan "xatasız" keçməsini müşahidə edir. Lakin quldur dəstəsi vaqonun hər anını dəqiqlikdə bildiyindən stansiyada süni manea yaradaraq vaqonu saxlatdırırlar - vaqonlardan un kisələrini talan edirlər. Bu prosesdə kimlər iştirak etdiyini quldur dəstəsinin üzvlərinin şəxsiyyətlərini müəyyənləşdirən Əli rayon rəhbərliyinə məlumat verənə kimi, quldur dəstəsinə məlum olur ki, onları ələ keçirəcəklər. Quldur dəstəsi çıxılmaz vəziyyətdə qaldıqda özlərini güvəndikləri quldur başçıları ilə: Vəli Qulam oğlu və Məzahir Qasım oğlunun (adlar şərtidir) məsləhəti ilə Əli Hüseyn oğlunun həyətinə talan etdikləri un kisələrindən bir neçə ədəd yerləşdirirlər və təcili rayon rəhbərliyinə zarət idarəsinə məlumat verirlər ki, vaqonu dağıdan elə Əli Hüseyn oğlunun özüdür və həyətində un kisələri yığılıb.

***- Quldurlar öz istəklərinə nail ola bildilərmi?***

- Təəssüf ki, fırıldaqçı quldur dəstəsinin rəhbərliyi özlərinin çirkin niyyətlərinə çataraq, belə bir igid insanı tutdururlar. Onu Sibirə, Omsk şəhərinə sürgün etdirirlər. 1932-ci ildə 56 yaşında Omsk şəhər həbsxanasında qəsdlə öldürtdürürlər və orada dəfn olunur.

**Elnur ELTÜRK**